20 may 2022 №38 (1911)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan öhdəliklərə sadiqdir, eyni məsuliyyəti qarşı tərəf də göstərməlidir

### Ermənistan iki dəfə görüşdən imtina edib



Biz Ermənistanı sərhədlərin delimitasiyasına başlamağa dəvət etdik. Çünki təxminən otuz il ərzində Ermənistanla dövlət sərhədimiz işğal altında olub. Buna görə sərhədlərin delimitasiyası zərurəti aydındır.

Prezident İlham Əliyev bu sözləri mayın 18-də Litva Prezidenti Gitanas Nauseda ilə görüşdən sonra mətbuata bəyanatında bildirib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə aprelin 6-da Brüsseldə keçirilmiş görüş zamanı aprelin sonuna qədər hər iki tərəfin işçi qrup yaratması barədə razılıq əldə olunduğunu xatırladan dövlətimizin başçısı deyib: “Azərbaycan işçi qrupunu vaxtında yaratmışdır və nümayəndə heyətini ezam etməyə hazır idi. Bu, erməni tərəfi ilə razılaşdırılmışdır. Yeri gəlmişkən, sərhədlə bağlı ilk görüşün keçirilməsini təklif edən Ermənistanın Xarici İşlər Nazirliyi olmuşdur. Azərbaycan həmin təklifi qəbul etmişdir və biz nümayəndə heyətini göndərməyə hazır idik. Lakin, sonuncu gün – aprelin 29-da Ermənistan artıq razılaşdırılmış görüşü ləğv etdi. Bu, çox məyusedici məsələdir. Daha məyusedici isə, yenə də Ermənistanın ilkin təklifindən irəli gələrək, 7-11 may tarixində sərhəddə yeni görüşün keçirilməsi təklifimizdən də Ermənistanın imtina etməsi oldu. Beləliklə, indiyədək, biz Ermənistandan hər hansı yeni tarixləri gözləyirik ki, işə başlayaq. Çünki bu cür məsuliyyətsiz mövqe, əlbəttə ki, narahatlıq doğurur”.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan hər zaman öhdəliklərə sadiq olub: “Lakin, biz eyni məsuliyyəti Ermənistan tərəfindən də görməliyik. Başqa sözlə, bizdə müəyyən nikbinlik olsa belə, Ermənistan hökumətinin bu cür manevrləri və çox qəribə addımları, əslində, yaranan müəyyən etimadı pozur...”.

## Mədəni mühitin canlandırılması ilə davamlı inkişaf

### Şuşada münaqişədən sonrakı humanitar gündəliyə həsr olunmuş beynəlxalq konfrans

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa azadlığına qovuşmasından ötən qısa müddətdə ard-arda beynəlxalq tədbirlərə, festival, forum və konfranslara ev sahibliyi edir. Beynəlxalq ictimaiyyət qala-şəhərimizin timsalında Qarabağımızın, onun tacı Şuşanın necə mədəni zənginliklər məkanı olmasının şahidinə çevrilir.



Mayın 19-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Şuşada işə başlayan “Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf” mövzusunda beynəlxalq konfrans da “Şuşa İli”ndə dünyanın diqqətini 270 yaşlı şəhərimizə yönəldib.

Beynəlxalq konfransda Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, TÜRKSOY-un Baş katibi Sultan Raev, İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Mədəni Mülkiyyətlərin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (İCCROM) Baş direktoru Ebber Ndoro və digər qonaqlar iştirak edirlər.

Konfransı Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli açıb.

Mədəniyyət naziri Anar Kərimov çıxış edərək konfransın iştirakçılarını salamlayıb. Tədbirin əhəmiyyətindən söz açan nazir bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər Ordumuzun şücaəti sayəsində bu gün Azərbaycanın dilbər guşəsi olan Şuşada bir araya gələ bilmişik: “Bu gün tədbirdə iştirak edən xarici qonaqlarda sual yarana bilər ki, nəyə görə Şuşa bizim üçün bu qədər önəmlidir? Ona görə ki, Şuşa Azərbaycan mədəniyyətinin özüdür, zənginliyidir və irsimizdir. Bu şəhərin hər daşı bizim üçün o qədər əzizdir ki, hətta Vətən müharibəsi zamanı şanlı Ordumuz yalnız yüngül silahlardan istifadə edərək tarixi abidələrimizə zərər yetirməməyə çalışdı. Bu gün Prezident İlham Əliyevin təsdiqlədiyi plan əsasında Şuşada çox böyük yenidənqurma işləri həyata keçirilir. Şəhərdə infrastrukturun yenidən qurulmasına xüsusi diqqət yetirilir. Hazırda göründüyü kimi, burada sosial infrastrukturun inşasına başlanılıb. Bu yenidənqurma işləri vaxtilə Şuşadan didərgin düşən həmvətənlərimizin tam rahat şəkildə doğma ocaqlarına qayıtmalarına şərait yaradacaq. Əminəm ki, Şuşanın ab-havası sizə müsbət təsir göstərəcək və bu məkanda bundan sonra da bir çox tədbirlərdə sizlərlə bir araya gələcəyik”.

davamı səh. 2-də

## Bizə keçmişi tanıdan və zehnimizi yeni ideyalara açan məkanlar

18 may – Beynəlxalq Muzeylər Günü ilə bağlı ölkəmizdə müxtəlif tədbirlər keçirildi, layihələr təqdim edildi. Əlamətdar gün münasibətilə Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində təşkil edilən “Muzeydə gecə” adlı tədbir xüsusilə yaddaqalan oldu.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı və İsveçin Azərbaycandakı Səfirliyinin dəstəyi ilə gerçəkləşən tədbirdə ölkəmizdə səfərdə olan TÜRKSOY-un Baş katibi Sultan Raev, İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Sərdar Çam, İsveç Krallığının ölkəmizdəki səfiri Kristian Kamill, yaradıcı təşkilatların rəhbər şəxsləri, mədəniyyət və



incəsənət xadimləri və digər qonaqlar iştirak edirdi.

Tədbiri giriş sözü ilə açan mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva bildirdi ki, Beynəlxalq Muzeylər Günü Azərbaycanda da geniş miqyasda qeyd edilir. Bu əlamətdar tarixlə əlaqədar Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən muzeylərdə “açıq qapı günü” elan olunub. Vətəndaşlar və ölkəmizin qonaqları 18 may tarixində ödənişsiz olaraq muzeyləri ziyarət etmək imkanı əldə edirlər.

davamı səh. 2-də

## Özlərini “mədəni toplum” kimi göstərənlərin törətdikləri əməlləri burada görürük

Ötən ilin iyunundan sonra yenə Şuşaya gəldik. Həqiqətən, çox genişmiqyaslı tikinti-quruculuq işləri aparılır, dağıdılan yollar, məhv edilən binalar sürətlə təmir edilir. Tarixi abidələr yenidən bərpa olunur. Burada çox böyük dağıntılar var. Bu həqiqətlərin, dağıdılmış bütün abidələrin, tarixi əsərlərin dünyaya çatdırılması lazımdır. Şuşa, əslində, açıq hava altında muzey kimi bir yerdir.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bu sözləri mayın 18-də Şuşada jurnalistlərə müsahibəsində deyib.

Mustafa Şentop qeyd edib ki, indi bütün dünyada özlərini “mədəni toplum” kimi göstərməyə çalışanların mədəni irsə qarşı törətdikləri cinayətləri Şuşada da görə bilirik. Bunun bütün dünyaya çatdırılması lazımdır. Biz bununla bağlı beynəlxalq simpozium təşkil edəcəyik. Tədbirin bir və ya iki panel iclasını da Şuşada təşkil etməyi planlaşdırırıq.

davamı səh. 4-də

## Bakı Beynəlxalq Piano Festivalı başlayır




20-27 may tarixində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 1-ci Bakı Beynəlxalq Piano Festivalı keçiriləcək. Festival müxtəlif ölkələrdən virtuoz pianoçulara özünü Bakı səhnəsində nümayiş etdirməyə imkan verəcək.

Mayın 19-da festivala həsr olunan mətbuat konfransı keçirilib. Festivalın təsisçisi və direktoru, Əməkdar artist Şahin Növrəsli layihə barədə məlumat verib. Qeyd edib ki, paytaxtın musiqi salonlarında ümumilikdə 15-ə yaxın konsertin keçirilməsi nəzərdə tutulub. Konsertlərdə caz, flamenko, tanqo, klassik və s. musiqilər ifa olunacaq.

Festival klassik musiqi ilə açılacaq. Filarmoniyada Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor – Xalq artisti Yalçın Adıgözəlov) müşayiəti ilə fransız pianoçu Remi Jenyenin ifasında Lüdviq van Bethovenin “Fortepiano və orkestr üçün 5 nömrəli konsert”i səslənəcək.

## Beynəlxalq Muzeylər Günü necə qeyd olundu?

Xəbər verdiyimiz kimi, Beynəlxalq Muzeylər Günü münasibətilə Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən muzeylərdə “açıq qapı” elan olunmuşdu. Biz də bu il “Muzeylərin gücü” mövzusuna həsr olunan əlamətdar gündə paytaxtımızın bir neçə muzeyini ziyarət etdik.

İlk olaraq Muzey Mərkəzində yerləşən Azərbaycan İstiqlal Muzeyində olduq. Direktor Sədi Mirseyibli qeyd etdi ki, “açıq qapı” günündə muzeyi 700-ə yaxın qonaq ziyarət edib. Muzeyə gələn qonaqlar həm muzeyin daimi ekspozisiyası, həm də “Şuşa İli”nə həsr olunmuş “Şuşa, sən azadsan!” adlı sərgi ilə tanış olublar. Sərgidə təsviri və tətbiqi sənət nümunələri və Vətən müharibəsinin şəhid mayoru Vüsal Vəliyev, digər şəhidlər – XTQ-nin giziri Rəşad Babayev, əsgəri Cavid Hüseynov, digər əsgərlər Samir Paşayev və Şaiq Kəlbiyevə məxsus, muzeyin fondlarında qorunub saxlanılan 130-a yaxın müxtəlif şəxsi əşya, sənəd və fotoşəkillər nümayiş olunub.



Direktor bildirdi ki, muzeydə “Könlüm keçir Qarabağdan” adlı konsert proqramı da təqdim olunub. Azərbaycan İstiqlal Muzeyi və Cəbrayıl Rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə gerçəkləşən konsert proqramında 4 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi, Cəbrayıl rayon 7 illik Musiqi məktəbi, Cəbrayıl rayon Mahmudlu kənd Uşaq musiqi məktəbinin müəllim və şagirdləri musiqi nömrələri və rəqsləri ilə muzey ziyarətçilərinin mənəvi zövqünü oxşayıb.

***

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində və muzeyin filialları olan Niyazinin Mənzil-Muzeyi, Vaqif Mustafazadənin Ev-Muzeyi və Qara Qarayevin Ev-Muzeyi də əlamətdar gün münasibətilə “açıq qapı” elan etmişdi.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktor müavini Təranə Qurbanova bildirdi ki, “açıq qapı” günündə muzeyə və filiallara ümumilikdə 5000-ə yaxın ziyarətçi gəlib.

davamı səh. 3-də

## “Yeni adlar”ın konsert proqramları davam edir

Mayın 17-də Mədəniyyət Nazirliyinin “Yeni adlar” layihəsi çərçivəsində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında növbəti musiqi axşamı keçirildi.

Tamaşaçılar arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Anar Kərimov, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, mədəniyyət və incəsənət xadimləri vardı.

Mədəniyyət Nazirliyinin “Mədəni gənclik” layihəsi üzrə Bakı Dövlət Universitetinin (BDU) tələbələri də konserti izləməyə gəlmişdilər. “Yeni adlar”ın budəfəki istedadları respublika və beynəlxalq müsabiqələr laureatları Əziz Pənah (qoboy) və Nərmin Nəcəfli (piano) idi. Musiqiçiləri Bakı Kamera Orkestri (dirijor – Əməkdar artist Fuad İbrahimov) müşayiət edirdi.

Konsert proqramından əvvəl çıxış edən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Musiqi tarixi kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Minaxanım Babayeva “Yeni adlar” və “Mədəni gənclik” layihələri haqqında məlumat verdi. Bildirdi ki, hər iki layihənin məqsədi gənclərimizin mədəniyyətə olan marağını, yüksək mənəvi zənginliyini artırmaqdır: “Respublikamızda və onun hüdudlarından kənarda fəaliyyət göstərən, təhsil alan, uşaq yaşlarından bəri musiqi sənətinin sirlərinə yiyələn gənclər “Yeni adlar” layihəsinə cəlb edilirlər. “Mədəni gənclik” layihəsinin məqsədi isə məhz Azərbaycan mədəniyyətinin, incəsənətinin zənginliyini respublikamızın ali təhsil ocaqlarında oxuyan tələbələrə aşılamaqdır”.

davamı səh. 3-də

### “Şuşa İli”nə həsr olunan muğam festivalı




səh. 4

### TÜRKSOY gələn il Şuşa ilə bağlı zəngin proqram tərtib edəcək

səh. 2



### Kann festivalı iki il aradan sonra ənənəvi təmtəraqda

səh. 8

# Mədəni mühitin canlandırılması ilə davamlı inkişaf

əvvəli səh. 1-də

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə heyətinin üzvü Esmira Cəfərovanın moderatorluğu ilə keçən iclasda TÜRKSOY-un Baş katibi Sultan Raev, İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, İCCROM-un Baş direktoru Ebber Ndoro və digər qonaqların çıxışları dinlənilib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxışı zamanı atüstü milli oyunlarımızın qorunub saxlanılması, qədim tarixə malik atçılıq ənənələrinin bərpası, ölkəmizdə atçılıq turizminin təbliğindən danışıb. Bildirib ki, Qarabağ atı ilə oynanılan çövkən oyunu 2013-cü ildə UNESCO-nun "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs üzrə Siyahı"ya daxil edilib. Çövkən artıq Qarabağla yanaşı, ölkəmizin digər regionlarında da geniş yayılıb.

Emin Hüseynov milli mədəni dəyərlərimizin qorunması və təbliğində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mühüm xidmətlərini diqqətə çatdırıb.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Angel Moratinos konfrans iştirakçılarına videomüraciətində Şuşada keçirilən tədbirdə iştirak edə bilməməsinə görə təəssüfünü bildirib. Azərbaycan ilə mədəniyyətlərarası dialoq sahəsində əməkdaşlığı yüksək qiymətləndirdiyini deyən M.A.Moratinos dünyada sülh çağırışı edən Azərbaycanı dəstəklədiklərini vurğulayıb. Qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə tarixi irsi bərpa etmək, eyni zamanda mədəni ruhu geri qaytarmaq üçün ilk öncə sülhü qurmaq lazımdır. Ali nümayəndə sülh anlayışının və sülh naminə fəaliyyətlərin daha sıx şəkildə önə sürülməsinin vacibliyini diqqətə çatdırıb.





BMT-nin Sivilizasiyalar Alyansı ilə Azərbaycanın əlaqələri haqqında da fikirlərini bölüşən M.A.Moratinos ölkəmizin beynəlxalq sülh çağırışlarını yüksək qiymətləndirib: "Müxtəlif mədəniyyətlər arasında anlaşma yaratmaq, sülhü təbliğ etmək üçün birgə çalışmalıyıq".

Sonra konfrans iştirakçıları italiyalı fotoqraf Fabrizio Continin işğaldan azad edilmiş ərazilərimizdə lentə aldığı fotolardan ibarət sərgi ilə tanış olublar.

### Postmünaqişə dövründə dialoq və əməkdaşlıqda mədəniyyətin rolu

"Postmünaqişə dövründə dialoq və əməkdaşlığın qurulmasında mədəniyyətin rolu" mövzusunda plenar sessiya Böyük Britaniyanın Koventri Universitetində Sülh, Etimad və Sosial Münasibətlər İnstitutunun qurucusu və rəhbəri, professor Mayk Hardinin moderatorluğu ilə gerçəkləşib. M.Hardi çıxış edərək konfransın təşkilatçılarına minnətdarlığını bildirib. O, Şuşada keçirilən konfransın önəmini vurğulayaraq qeyd edib ki, dünyada müharibələrin olduğu və sülhə daha çox ehtiyac duyulduğu vaxtda Azərbaycanın belə tədbirlərə ev sahibliyi etməsi təqdirəlayiqdir: "Bu günə kimi bizim Azərbaycanla bu mövzuda bir neçə görüşümüz olub. Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülmüş "Mədəniyyət naminə sülh" (Peace4Culture) təşəbbüsü çərçivəsində görüşlərdə dayanıqlı inkişaf üçün sülhün rolu barədə müzakirələr aparmışıq".

Beynəlxalq Tərəqqi Təşkilatının prezidenti Hans Köchler ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətindən söz açıb. Deyib ki, Azərbaycan tarixinin Heydər Əliyevin aktiv siyasi fəaliyyəti dövrünə təsadüf edən iki böhranlı mərhələsində xalqın və ölkənin xilası və inkişafının əsasının qoyulması bilavasitə onun möhtəşəm tarixi xidmətləridir ki, bu missiyanı Azərbaycan Prezidenti İlham Əliyev bu gün uğurla davam etdirir.

TÜRKSOY-un Baş katibi Sultan Raev, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə, Hikmət Fondunun icraçı direktoru Zinət Şökətəli, Qahirə Universitetinin professoru, dayanıqlı ətraf mühit üzrə beynəlxalq ekspert Mohsen Abulnaga, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə heyətinin üzvü Gülşən Paşayeva çıxışları zamanı ölkəmizin təşəbbüskarı olduğu mədəniyyətlərarası dialoq və bir sıra bu qəbildən olan beynəlxalq layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, tarixən Azərbaycanda fərqli dini mənsubiyyəti olan icmalar, milli-etnik qruplar dinc mehriban yaşayıb, öz mədəni irslərini qoruyublar. Çıxışlarda həmçinin Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən postmünaqişə dövrlərində mədəniyyətlərarası və dinlərarası dialoqun, mədəni və dini irsin qorunmasına xidmət edəcək "Mədəniyyət naminə sülh" (Peace4culture) qlobal layihəsinin də əhəmiyyəti yüksək qiymətləndirilib.

### Dayanıqlı sülhün təməli – mədəni irs

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərlinin moderatorluğu ilə keçən "Dayanıqlı sülhün təməli – mədəni irs" mövzusuna həsr olunan növbəti sessiyada xidmət rəisi diqqətə çatdırıb ki, sülhün dayanıqlı inkişafı hüquqi şərtdir. Mədəniyyətlərimiz haqqında bilikləri gələcək nəsillərə ötürməli və qorumalıyıq.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış edərək Şuşada belə mötəbər bir tədbirdə iştirakından məmnunluğunu ifadə edib, bu şəraiti yaradan insanlara dərin təşəkkürünü bildirib: "Qarabağın gözü olan Şuşaya yığışmışıq. Prezident İlham Əliyev 2022-ci ili ölkəmizdə "Şuşa İli" elan edib. Şuşa bizim mədəniyyətimizin paytaxtı, memarlığımızın güzgüsüdür. Şuşa şəhərinin 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsi tarixi addımdır. Bu münasibətlə fond olaraq müxtəlif tədbirlər keçirməyi nəzərdə tuturuq. Şuşa bu gün artıq dirçəlir, şəhərdə festivallar, konfranslar keçirilir. Gələn il isə Türk Dövlətləri Təşkilatı, TürkPA, TÜRKSOY kimi beynəlxalq təşkilatların himayədarlığı ilə bir sıra tədbirlər keçiriləcək".

Daha sonra Maltanın UNESCO üzrə Milli Komissiyasının sədri Raymond Bondin, Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin tədqiqatçısı, islamşünas alim Kərim İfrak, Milli Məclisin deputatı Vüqar İsgəndərov və başqalarının məruzələri dinlənilib. Çıxışlar zamanı qeyd edilib ki, mədəniyyət keçmişin, tarixin toplusudur. Mədəni irsimizi qorumaq və gələcəyə ötürmək vacib missiyadır. Mehriban və sakit gələcək üçün sülh və münaqişəsiz dünya yaratmalıyıq. Mədəni irsin və müxtəlifliyin təbliği də mühüm amildir. Davamlı sülhə şəxsiyyət anlayışına, mədəniyyətlərarası mübadiləyə diqqət yetirmək və müxtəlif sosial qruplar arasında dialoq yaratmaqla nail olmaq olar.

Qeyd olunub ki, mədəni irs nümunələrinin dağıdılması, talan edilməsi beynəlxalq hüquqa ziddir. Bu gün dünyamız böyük aşınmalar yaşayır. Bunun səbəblərini bəziləri siyasət və iqtisadiyyatda arayır. Amma əsas səbəb mədəniyyətdir. Mədəniyyət tamlıqdır. Burada düşüncə, din, sənət, hüquq, ədəbiyyat, dövlət sistemi və birgəyaşayış qaydaları var. Birgəyaşayış mədəniyyətin önəmli sahəsidir. Multikultural dəyərlərə sahib çıxmaqla sülhə nail olmaq mümkündür.

Beynəlxalq konfrans mayın 20-də Şuşada işini davam etdirəcək.

# TÜRKSOY gələn il Şuşa ilə bağlı zəngin proqram tərtib edəcək

2023-cü ildə Şuşanın "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olması ilə bağlı TÜRKSOY tərəfindən zəngin proqram tərtib ediləcək.

Bu barədə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Sultan Raev mayın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə görüşdə bildirib.



Sultan Raev Şuşa şəhərində təşkil olunan "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizə gəlib.

Sultan Raevi TÜRKSOY-un Baş katibi seçilməsi münasibətilə təbrik edən Ceyhun Bayramov Azərbaycanın təşkilatla əməkdaşlığa verdiyi yüksək önəmi vurğulayıb. Bildirib ki, Baş katibin Şuşaya səfəri eyni zamanda azad edilmiş ərazilərdəki vəziyyət, o cümlədən orada aparılan genişmiqyaslı quruculuq işləri ilə yaxından tanış olmaq imkanı olacaq.

Görüşdə həmçinin gələn il TÜRKSOY-un 30 illiyinin qeyd edilməsi, Azərbaycanın təşkilatla fəal əməkdaşlığı, türk xalqlarının ortaq mədəniyyətinin təşviqi istiqamətində işlərin görülməsi kimi mövzular üzrə fikir mübadiləsi aparılıb.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda "Litva karaimləri" sərgisi



Mayın 18-də Bakıda, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda "Litva karaimləri" adlı sərginin açılışı olub. Litva Respublikasının birinci xanımı Diana Nausediene sərginin açılışında iştirak edib.

Fondun prezidenti Günay Əfəndiyeva qonağa qurumun fəaliyyət istiqamətləri, türk xalqlarının maddi mədəni irsinin beynəlxalq aləmdə təbliği məqsədilə keçirilən tədbirlər, yayımladıqları nəşrlər barədə məlumat verib. Bildirilib ki, ötən il Litva ilə bu ölkədəki türk əsilli tatar və karaimlərin mədəni irsinin qorunması və təbliğinə dair əməkdaşlıq memorandumu imzalanıb. 2021-ci ilin "Litva tatarları İli" elan olunması ilə əlaqədar Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən "Litva tatarları" adlı sərgi də açılıb.

Litvanın birinci xanımı Diana Nausediene iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərin inkişafı baxımından belə tədbirlərin önəmini vurğulayıb.

Sonra sərgi ilə tanışlıq olub. Qeyd edilib ki, sərgi Litvada yaşayan türk milli azlıqların – karaimlərin tarixinin, mədəniyyətinin qorunması və təbliği məqsədi daşıyır.

# Bizə keçmişi tanıdan və zehnimizi yeni ideyalara açan məkanlar

əvvəli səh. 1-də

"Muzeydə gecə" tədbiri haqqında məlumat verən nazir müavini qeyd etdi ki, layihə çərçivəsində Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə muzeydə ilk dəfə açıq səma altında Bakı Kamera Orkestrinin konserti keçiriləcək. Həmçinin muzeyin zəngin kolleksiyasından seçilmiş eksponatlar əsasında Xalq rəssamı Səttar Bəhlulzadənin sehrli sənət dünyasının instalyasiyaya çevrildiyi proqram təqdim ediləcək.

30 il əvvəl, 1992-ci il mayın 18-də Azərbaycanın Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğunu xatırladan Sevda Məmmədəliyeva dedi ki, uzun illər bu tarix bizim üçün ağrılı günlərdən idi: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun qəhrəmanlığı sayəsində 2020-ci ilin 44 günlük Vətən müharibəsində Qarabağ, o cümlədən Laçın rayonu düşmən işğalından azad edildi. Artıq 18 may tarixini biz Beynəlxalq Muzeylər Günü və bir bayram günü kimi ürəkdən, yüksək əhval-ruhiyyə ilə qeyd edirik. Hazırda işğaldan azad olunmuş ərazilərimizdə böyük quruculuq işləri həyata keçirilir. Bu layihələr çərçivəsində vaxtilə mövcud olan muzeylər də bərpa edilir. Nəhayət ki, illərdir doğma məkanından uzaq düşən muzeylərimiz vətəninə qayıdacaq və muzeylərin zəngin kolleksiyası öz doğma yurdunda sərgilənəcək".

Sevda Məmmədəliyeva çıxışının sonunda tədbir iştirakçılarını Beynəlxalq Muzeylər Günü münasibətilə təbrik etdi.

## "Muzeydə gecə" aksiyasına bu il Milli İncəsənət Muzeyi ev sahibliyi etdi

İsveçin ölkəmizdəki səfiri Kristian Kamill bildirdi ki, muzeylər ətrafımızdakı dünyanı dəyişdirmək gücünə malikdir. Onlar misilsiz kəşf məkanları olaraq bizə keçmişimiz haqqında bilgi verir və zehnimizi yeni ideyalara açır: "Bu günə kimi təkcə Bakının əsas muzeylərini deyil, həm də kənd yerlərində çoxlu sayda muzeyləri ziyarət etmişəm. Bölgələrdə ziyarət etmək üçün ən azı onlarla muzey var ki, onların çoxu Azərbaycanın görkəmli musiqiçilərinin, şairlərinin və alimlərinin ev-muzeyləridir. Mən bütün bunları kəşf etməkdən böyük məmnunluq duyuram və fürsətdən istifadə edərək, ziyarət zamanı həmişə göstərilən səmimi qəbula görə bütün muzey işçilərinə təşəkkürümü bildirirəm. Mən xüsusilə şadam ki, bu gecə Könül Rəfiyevanın kuratorluğu ilə "İsveç-Azərbaycan incəsənət dialoqu" layihəsi də təqdim olunur.




Paytaxtımız Stokholmdan olan rəssam Lyudmila Kristeseva və bakılı Günel Ravilova heç vaxt şəxsən görüşməyiblər, lakin pandemiya zamanı onlar bu gecə nümayiş etdirilən bu gözəl instalyasiyanı yaradıblar".

Bədii hissədə Mədəniyyət Nazirliyinin "Yeni adlar" layihəsinin iştirakçılarından olan gənc musiqiçilər – respublika və beynəlxalq müsabiqələr laureatları Əziz Pənah (qoboy) və Nərmin Nəcəfli (piano) çıxış etdilər. Onları Bakı Kamera Orkestri (dirijor – Əməkdar artist Fuad İbrahimov) müşayiət edirdi.

Musiqiçilər tərəfindən Üzeyir Hacıbəylinin "Arazbarı" zərbi-muğamı, D.Çimarozanın "Qoboy və orkestr üçün konsert"i, F.Mendelsonun "10 nömrəli simli simfoniya"sı və F.Şopenin "Fortepiano və orkestr üçün 1 nömrəli konsert"i ifa olundu.

Daha sonra dizayner Murad Hüseyn tərəfindən məşhur "Giedi" markasının muzey kolleksiyası əsasında hazırlanmış moda nümayişi oldu.

Sonra tədbir iştirakçıları Azərbaycan Milli İncəsənət Muzeyinin zəngin kolleksiyası və müxtəlif mövzu və muzeyin tarixinin fərqli dövrlərini əks etdirən sərgi layihələri aləminə səyahət etdi. Fərhad Fərzəliyev, Günel Ravilova, İbrahim Babayev, Lyudmila Kristeseva, Timur Əmirxanov kimi rəssam və müəlliflərin multimedia instalyasiyaları, rəqəmsal layihələr, davamlı inkişaf və gender mövzularında əsərləri gecə boyunca muzeyin müxtəlif guşələrində nümayiş olundu.

Qeyd edək ki, "Muzeydə gecə-2022" multimedia aksiyasının tədbirləri Mədəniyyət Nazirliyinin "Museum.az" onlayn platforması üzərindən yayımlanıb.

**N.Məmmədli**

# Xalq şairi, millət vəkili

## Sabir Rüstəmxanlı haqqında biblioqrafiya və monoqrafiyanın təqdimatı keçirilib

Mayın 19-da Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr etdiyi "Sabir Rüstəmxanlı. Biblioqrafiya" kitabının təqdimatı keçirilib. Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkil etdiyi tədbirdə tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər. Tədbir çərçivəsində AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun yeni nəşr etdiyi "Xalq şairi Sabir Rüstəmxanlı" adlı monoqrafiya da təqdim edilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov biblioqrafik göstərici haqqında məlumat verib. Bildirib ki, bu vəsait yazıçı haqqında ilk fundamental biblioqrafiyadır. Biblioqrafiya Sabir Rüstəmxanlının nəşr olunmuş kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, publisistik məqalələri, tərcümələri, redaktə etdiyi kitablar, eləcə də xarici dillərdə çap olunmuş əsərləri, habelə ədibin həyat və yaradıcılığını, ictimai-siyasi fəaliyyətini əks etdirən nəşrləri əhatə edir.

Milli Məclisin deputatı, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli təqdim olunan monoqrafiyanın Sabir Rüstəmxanlının 75 illik yubileyi münasibətilə hazırlandığını bildirib. "Sabir Rüstəmxanlı geniş oxucu kütləsinin etibarını qazanan sənətkardır. Vətəndaşlıq poeziyası, milli istiqlal ruhu, müstəqillik ideyaları, dövlətçilik onun yaradıcılığının ana xəttini təşkil edir. Sabir Rüstəmxanlı Azərbaycanın milli istiqlal mübarizəsinə çox böyük töhfələr verib...", - deyə akademik vurğulayıb.




İ.Həbibbəyli Milli Kitabxananın nəşri olan biblioqrafiyanın əhəmiyyətini də vurğulayıb.

AMEA-nın müxbir üzvü, ədəbiyyatşünas Tehran Əlişanoğlu, Milli Məclisin sədr müavini, professor Fəzail İbrahimli, Yazıçılar Birliyinin katibi, Xalq yazıçısı Çingiz Abdullayev, Azərbaycan Dövlət Tərcümə Mərkəzi İdarə heyətinin sədri, Xalq yazıçısı Afaq Məsud, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, millət vəkili, akademik Nizami Cəfərov və digər çıxış edənlər təqdim olunan kitablar, eləcə də Sabir Rüstəmxanlının ədəbi yaradıcılığı, ictimai-siyasi xadim, millət vəkili kimi fəaliyyətindən söz açıblar.

Sabir Rüstəmxanlı çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib. Xalq şairi geniş əhatəli biblioqrafiyanın tərtib olunmasında əməyi keçən hər kəsə minnətdarlığını çatdırıb.

Sonda iştirakçılar Sabir Rüstəmxanlının həyat və yaradıcılığını əhatə edən kitabların sərgisi ilə tanış olublar.

# Bakıda çalışmış litvalı edib və diplomatın xatirəsi əbədiləşdirilib

Litva ədəbiyyatının klassiki, yazıçı-dramaturq, şair, tərcüməçi Vintsas Kreve (Miskevicius) 1919-1920-ci illərdə ölkəsinin Bakıda ilk konsulu olub, həmçinin yenicə yaradılmış Bakı Dövlət Universitetində dərs deyib. Litvalı edib və diplomatın xatirəsi vaxtilə dərs dediyi binada (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) əsas binası) əbədiləşdirilib.



Mayın 18-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Vintsas Krevenin (1882-1954) adına auditoriyanın və xatirə barelyefinin açılışı olub. Mərasimdə Bakıda səfərdə olan Litvanın birinci xanımı Diana Nausediene, Litva nümayəndə heyətinin üzvləri iştirak ediblər.

Litvanın birinci xanımı və nümayəndə heyətini mədəniyyət naziri Anar Kərimov və universitetin rektoru, professor Ədalət Muradov qarşılayıblar.

Qonağa UNEC-in Ekstern mərkəzi, "Bloomberg" maliyyə laboratoriyası, universitetin təhsil imkanları, beynəlxalq əlaqələri, Litva ali təhsil müəssisələri ilə mübadilə proqramları barədə məlumat verilib. Diana Nausediene universitetdə şəhidlərin memorial-xatirə kompleksini ziyarət edib.

Açılış mərasimində çıxış edən rektor Ədalət Muradov, Vintsas Krevenin Azərbaycandakı diplomatik, eləcə də müəllimlik fəaliyyətindən danışıb. Rektor Litvanın tanınmış yazıçısı və diplomatının adına UNEC-də auditoriyanın yaradılmasının iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinə töhfə verəcəyindən əminliyini bildirib.

Diana Nausediene Litva ədəbiyyatı tarixində önəmli yeri olan Vintsas Krevenin adına auditoriyanın yaradılmasını iki ölkənin bir-birinin tarix və mədəniyyətini daha yaxından tanıması baxımından yüksək qiymətləndirib. O, 2014-cü ildə Litva Təhsil Universitetində (indiki Vitautas Maqnus Universiteti) məşhur Azərbaycan şairi Nizami Gəncəvinin adına auditoriyanın yaradıldığını, 2018-ci ildən isə Vilnüs Universitetində Azərbaycan dili adına auditoriyanın fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Diana Nausediene layihəni həyata keçirən UNEC-ə, Litvanın Azərbaycandakı Səfirliyinə və xatirə lövhəsinin müəllifi olan Antanas Zukauskasa təşəkkürlərini bildirib.

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov Azərbaycan və Litva arasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsinin hər iki ölkə üçün önəmini vurğulayıb, mədəni sahədə əlaqələrdən söz açıb.

Sonra barelyefin önündəki lent kəsilib və açılış olub.

Xanım Diana Nausediene auditoriya ilə tanış olub, tələbələrlə görüşüb.

# Mədəniyyət Nazirliyində İran nazirinin müşaviri ilə görüş

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev İran İslam Respublikasının mədəniyyət və islam irşadı nazirinin müşaviri Əbuzər İbrahim Torkmanla görüşüb.

Qonağı səmimi salamlayan Elnur Əliyev tarixən ölkələrimiz arasında mövcud olan və güclənən mədəni əlaqələrdən bəhs edib, o cümlədən ədəbiyyat sahəsində mənəvi bağlardan danışıb.



Görüşdə ölkələrimiz arasında dostluq, əməkdaşlıq münasibətinin bundan sonra da inkişaf edəcəyinə inam ifadə olunub, bu sahədə görülən işlər barədə fikir mübadiləsi aparılıb.

Əbuzər İbrahim Torkman Azərbaycan Mədəniyyət Nazirliyinin rəhbərliyini İran İslam Respublikasına rəsmi səfərə dəvət edib. Qonaq Qarabağda, xüsusən Şuşada keçirilən mədəni tədbirləri dəstəklədiklərini vurğulayıb, muzeylər, kitabxanalar, eləcə də digər mədəniyyət ocaqlarının bərpa və yenidənqurma işlərində yaxından iştirak etməyə hazır olduqlarını bildirib.

Görüş tərəfləri maraqlandıran məsələlərin müzakirəsi ilə davam edib.

# "Yeni adlar"ın konsert proqramları davam edir




əvvəli səh. 1-də

Sonra konsert proqramı təqdim edildi. Proqramda F.Mendelsonun 10 nömrəli simli simfoniyası, D.Çimarozanın "Qoboy və orkestr üçün konsert"i və F.Şopenin "Fortepiano və orkestr üçün 1 nömrəli konsert"i səsləndi. Orkestrin və gənc musiqiçilərin ahəngdar çıxışları tamaşaçılar tərəfindən gur alqışlarla qarşılandı.

***

Əziz Pənah 2002-ci ildə Bakıda anadan olub. 2019-cu ildə Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbini qoboy sinfi üzrə bitirib. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil alıb. 2018-ci ildə Gürcüstanda keçirilən Y.Mikeladze adına orkestr alətləri üzrə gənc ifaçıların III Beynəlxalq müsabiqəsində Qran-pri mükafatına layiq görülüb. Həmin il Türkiyədə keçirilən "Harmoniya" VII Beynəlxalq müsabiqəsində, Litvada təşkil olunan "Dünya harmoniyası" II Beynəlxalq müsabiqəsində, eləcə də 2019-cu ildə Bakıda keçirilən "Dünya harmoniyası" beynəlxalq müsabiqələrində Qran-pri mükafatını qazanıb. 2020-ci ildə İslam dünyası gənc klassik musiqi ifaçılarının IX Beynəlxalq müsabiqəsinin, həmin ildə İspaniyanın Barselona şəhərində keçirilən "Rus Alboradası" V Beynəlxalq müsabiqəsinin də baş mükafatını qazanıb.

Ə.Pənah müxtəlif illərdə Oslo Filarmonik Orkestrinin solisti D.F.Ştrunkdan (Norveç) və Almaniyanın Düsseldorf şəhərindəki R.Şuman adına Ali Musiqi Məktəbinin professoru R.V.Daaldan ustad dərsləri alıb.

Nərmin Nəcəfli 1996-cı ildə Bakıda anadan olub. 2014-cü ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini bitirərək Almaniyanın Hannover şəhərindəki Musiqi, Dram və Media Universitetinə qəbul olunub. 2018-2021-ci illərdə həmin universitetin magistr pilləsində təhsil alıb, 2021-ci ildən təhsilini doktorantura pilləsində davam etdirir. 2007-ci ildə adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılaraq Prezidentin xüsusi aylıq təqaüdünə layiq görülüb. 2013-cü ildə Gənclər və İdman Nazirliyi tərəfindən "Gənclər mükafatı", 2016-cı ildə Gənclər üçün Prezident mükafatı alıb.

N.Nəcəfli 2012-ci ildə Estoniyanın Narva şəhərində keçirilən F.Şopen adına 9-cu beynəlxalq müsabiqədə I yerə, İtaliyanın Seregno şəhərində təşkil olunan Gənc pianoçuların beynəlxalq müsabiqəsində II yerə, Böyük Britaniyanın Nyukasl şəhərində Gənc pianoçuların V Beynəlxalq müsabiqəsində I yerə, 2013-cü ildə Polşanın Şafarniya şəhərində Uşaq və gənclərin XXI Beynəlxalq F.Şopen adına piano müsabiqəsində II yerə, 2017-ci ildə Qranada şəhərində (İspaniya) pianoçuların beynəlxalq müsabiqəsində xüsusi mükafata layiq görülüb.

Gənc pianoçu 2019-cu ildə Hannover Opera Teatrı və Hannover Simfonik Orkestrinin (Almaniya) birgə keçirdiyi müsabiqədə qalib gələrək "Nijinski və Liebhaber" layihələrində iki mövsüm solist olaraq dəfələrlə orkestr ilə çıxış edib.

**Nurəddin**

# Beynəlxalq Muzeylər Günü necə qeyd olundu?

əvvəli səh. 1-də

### "Xan qızı" ədəbi-bədii kompozisiyası

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi Beynəlxalq Muzeylər Gününə məxsusi hazırlaşmışdı.

Muzeyin elmi katibi Aytən Məmmədova qeyd etdi ki, "açıq qapı" günündə muzeyi 350 nəfər ziyarət edib. Həmin gün ziyarətçilərə "Xan qızı" ədəbi-bədii kompozisiyası təqdim olunub. Azərbaycan Dövlət Teatr Muzeyinin təşkilatçılığı ilə Bakı Bələdiyyə Teatrının təqdim etdiyi kompozisiya "Şuşa İli"nə və Xurşidbanu Natəvanın 190 illik yubileyinə həsr edilib. Xalq artisti Mərahim Fərzəlibəyovun quruluş verdiyi kompozisiya Xalq yazıçısı İlyas Əfəndiyevin uzun illər Azərbaycan teatrının səhnəsində uğurla oynanılmış "Xurşidbanu Natəvan" pyesinin motivləri əsasında hazırlanıb.

Qonaqlar Qarabağ mövzusunda əsərlərə çəkilmiş geyim və dekorasiya eskizlərindən ibarət sərgi ilə də tanış olublar. Ziyarətçilər sonda muzey əməkdaşları tərəfindən hazırlanmış videoçarxı izləyiblər.

***

Əlamətdar gün münasibətilə İçərişəhərdə Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi, Tahir Salahovun Ev-Muzeyi, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi, Yeraltı hamam və Bakı Fotoqrafiya Evini də ziyarət etdik. Sözügedən mədəniyyət ocaqları da "açıq qapı" aksiyasına qoşulmuşdular. Şəhərimizin sakinləri və xarici turistlər yaradılmış bu fürsəti maksimum dəyərləndirməyə çalışırdılar.

***

Azərbaycan Milli Xalça Muzeyində əsl "açıq qapı" hiss olunurdu, qələbəlik idi. Pandemiya səbəbindən iki ilə yaxın muzey və qalereyalara həsrət qalan ziyarətçilər sanki bu ayrılığın əvəzini çıxmağa çalışırdılar.

Muzeyin mətbuat katibi Ülvinə Fərzəliyeva məlumat verdi ki, "açıq qapı" günündə 3000-ə yaxın qonaq muzeyi pulsuz olaraq ziyarət edib.

Onu da qeyd edək ki, mayın 20-də Azərbaycan Milli Xalça Muzeyində Beynəlxalq Muzeylər Günü münasibətilə "Danışan abidələr" fotosərgisi açılacaq.





Sərgidə Qarabağda erməni işğalı dövründə dağıdılmış muzey və tarixi-mədəni abidələrimizin fotoları nümayiş etdiriləcək. Əməkdar rəssam Yelena Haqverdiyeva tekstil vitrajların hazırlanması, Əməkdar rəssam Taryer Bəşirovla çətən üzrə ustad dərsləri keçəcək.

***

Baş çəkdiyimiz daha bir ünvan Azərbaycan Milli İncəsənət Muzeyi oldu. Elmi-kütləvi işlər şöbəsinin müdiri Rəfiqə Quliyeva dedi ki, "açıq qapı" günündə muzeyi 4500-dən çox qonaq ziyarət edib.

Qeyd edək ki, mayın 18-də muzeydə Mədəniyyət Nazirliyinin təşkilatçılığı və İsveçin Azərbaycandakı Səfirliyinin dəstəyi ilə "Muzeydə gecə" aksiyası da keçirilib.

### "Danışan" eksponatlar rəqəmsal təqdimatda

Bu il Beynəlxalq Muzeylər Günü "Muzeylərin gücü" devizi altında keçirildiyindən Abdulla Şaiqin Mənzil-Muzeyi rəqəmsallaşdırma və əlçatanlıqda innovasiyaların gücünü əsas tutaraq "Danışan" eksponatlar rəqəmsal təqdimatda" adlı tədbir təşkil etmişdi. Tədbirin qonaqları əsasən Azərbaycan Dövlət Turizm və Menecment Universitetinin müəllim və tələbələrindən ibarət idi.

Muzeyin əməkdaşları eksponatların maraqlı tarixçələrini Abdulla Şaiqin özünün qələmindən çıxan xatirələri ilə dilləndirdilər və həmin eksponatlar tədbir iştirakçılarına rəqəmsal formatda təqdim olundu.

### Gənc rəssamların Tarix Muzeyində pleneri

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində "Muzeyin "SABAH"-ı" adlı layihə çərçivəsində tədbir keçirildi. Layihənin iştirakçıları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dekorativ-tətbiqi sənət və dizayn ixtisasları üzrə oxuyan və təhsil göstəriciləri ilə fərqlənən "SABAH" qruplarının tələbələri idilər.

Gənclər gün ərzində canlı şəkildə muzeyin müəyyən olunmuş zallarında ixtisaslarına uyğun olaraq təsviri sənət sahələri üzrə əl işləri hazırladılar.





Layihənin kuratoru, muzeyin əməkdaşı Zümrüd İsmayılova bildirdi ki, hər il olduğu kimi, bu il də əlamətdar gün münasibətilə muzeyimizə çoxsaylı ziyarətçilər gəlməkdədir: "Yaş kateqoriyasına uyğun olaraq ekspozisiyalara maraq da müxtəlifdir. Layihə çərçivəsində tələbələrin əl işləri də maraqla seyr edilir. Tələbələrin çöhrələrindəki məmnunluq isə onların muzeylə əməkdaşlıqdan zövq almalarının göstəricisidir". Günorta saatlarında muzeydə olmağımıza rəğmən artıq 2000-dən artıq ziyarətçinin siyahıdan keçdiyinin şahidi olduq. Onların arasında sadə vətəndaşlar, məktəblilərlə yanaşı turistlər də vardı.

Muzeyin içində yaradılan Hacı Zeynalabdin Tağıyevin Ev-Muzeyinə hədsiz marağı müşahidə etdik. Müəllim və valideynlə gələn məktəblilərin sualları da diqqətimizdən qaçmır. Hər bir eksponat və əşya haqqında əlavə məlumat almaq istəyən uşaqlar bəzən bir eksponata dəqiqələrlə, diqqətlə nəzər yetirirlər.

Muzeyə gələnlər arasında Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin (RUGİM) direktor müavini Lalə Dadaşova da vardı. O, muzeyin özəlliyindən söz açır, buradakı hər bir eksponatın tariximizi öyrənmək, mədəniyyətimizi təbliğ etmək baxımından əhəmiyyətini qeyd edir. Bildirir ki, bu gün muzeyə axın edən məktəblilərin əksəriyyəti RUGİM-in 18-24 may tarixində "Məktəblilər üçün muzey həftəsi" layihəsinin iştirakçılarıdır. Layihə çərçivəsində "Şuşa İli" – Zəfərimizin tarixi" adlı interaktiv proqrama start verilib. Proqram Təhsil Nazirliyinin dəstəyi, Mədəniyyət Nazirliyi, AMEA, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin əməkdaşlığı və RUGİM-in təşkilatçılığı ilə icra edilir.

### Cabbarlı yaradıcılığı səyyar sərgidə

Cəfər Cabbarlının Ev-Muzeyinin təşkilatçılığı ilə böyük dramaturqun həyat və yaradıcılığını əks etdirən səyyar sərgi 2 saylı Tibb Kollecində təqdim olundu.

Qeyd edək ki, hazırda təmirdə olan və qapılarını ziyarətçilərə aça bilməyən muzeylər üçün bu səyyar sərgini nümunəvi təcrübə adlandırmaq olar. Sərgidə muzeyin ekspozisiyasında olan və daşına bilən eksponatlar kollecin kollektivinə nümayiş etdirilirdi. Muzeyin böyük elmi işçisi Gülnarə Əlibalayeva kollecin müəllim və tələbə heyətinə muzeyin ekspozisiyası haqqında ətraflı məlumat verdi və eyni zamanda tələbələri maraqlandıran sualları cavablandırdı.

Sərgi ilə tanışlıqdan sonra tədbirin ikinci hissəsi dramaturqun əsərləri haqqında məlumat və bədii hissə ilə davam etdi. Kollecin direktoru Dilarə Məmmədəliyeva qonaqları salamlayaraq muzeyin təşəbbüsünü alqışladı, Beynəlxalq Muzeylər Günü ilə əlaqədar bütün muzey işçilərinə təbriklərini çatdırdı.

Cəfər Cabbarlının Ev-Muzeyinin direktoru Qəmər Bağırova, Azərbaycan Milli Konservatoriyasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy böyük dramaturqun yaradıcılığı haqqında düşüncələrini bölüşdülər. Tədbirdə edibin şeirləri səsləndirildi, sözlərinə yazılmış mahnıların lent yazıları dinlənildi.

***

L. və M.Rostropoviçlərin Ev-Muzeyi Beynəlxalq Muzeylər Günü münasibətilə bir sıra tədbirlər həyata keçirib. Xəbər verdiyimiz kimi, mayın 14-də muzeyin təşkilatçılığı ilə "Dəniz Mall"da keçirilən "Klassik musiqi fləşmobu" böyük maraq doğurmuşdu.

Mayın 18-də isə muzeydə "açıq qapı" günü elan olunub. Muzeyə gələn qonaqlara üç dildə ekskursiya keçirilib. Ekskursiyadan sonra ziyarətçilər Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdləri İ.Kərimli (violin), A.Şirinova (violonçel) və N.Cəfərlinin (fortepiano) ifasında Q.Qarayevin "Fikirli", M.Musorqskinin "Göz yaşı", F.Sücəddinovun "Vətən balladası" və s. əsərləri dinləyiblər. Qonaqlar "Klassik musiqi fleşmobu"nun videogörüntülərini də maraqla izləyiblər.

***

Beynəlxalq Muzeylər Günü ilə bağlı Bülbülün Memorial Muzeyində də tədbir keçirilib. Muzeyin direktoru Fərqanə Cabbarova qonaqları salamlayıb, əlamətdar günün tarixindən söhbət açıb. Tədbir Bülbül adına Orta İxtisas Musiqi Məktəbi şagirdlərinin konsert proqramı ilə davam edib.

***

Əzim Əzimzadənin Mənzil-Muzeyində isə mayın 17-də "Muzeylərimiz xəzinədir" adlı tədbir keçirilib. Tədbir Məmməd Səid Ordubadinin Xatirə Muzeyi, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Tələbə-gənclər təşkilatı və "Aytam" Uşaqların Mədəni Maariflənədirilməsi İctimai Birliyinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Əzim Əzimzadənin Mənzil-Muzeyinin direktoru İradə Əzimzadə mədəniyyət ocağının yaranma tarixindən danışıb.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev muzey əməkdaşlarını əlamətdar gün münasibətilə təbrik edib.

Xalq rəssamı Arif Hüseynov, M.S.Ordubadinin Xatirə Muzeyinin direktoru Lalə Abaszadə, "Aytam" İB-nin rəhbəri Aygün Zamanlı və digər qonaqların çıxışları dinlənilib. Tələbələr bədii proqram təqdim ediblər.

***

İnanırıq ki, qarşıdakı illərdə işğaldan azad olunmuş şəhər və rayonlarımızda mənfur düşmənin viran qoyduğu, eksponatlarını taladığı muzeylərimiz yenidən qurulacaq, Qarabağ və Şərqi Zəngəzurun tarixi-mədəni zənginlikləri, şanlı Zəfərimizin və işğalın sübutları olan eksponatlar ziyarətçilərə təqdim ediləcək.

**N.Məmmədli**
**L.Azəri**

## “Zəfərin zirvəsi – Şuşa”

Yerlərdəki mədəniyyət müəssisələrinin “Şuşa İli” ilə bağlı silsilə tədbir və təqdimatları davam edir.



Xaçmaz RMİ Qusar rayon Heydər Əliyev Mərkəzində “Zəfərin zirvəsi – Şuşa” mövzusunda konfrans təşkil olunub. Çıxışlarda bildirilib ki, Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə bəslənən sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Konfransın yekununda “Şuşa – Azərbaycanın mədəniyyət və tarix incisi” mövzusunda videoçarx nümayiş olunub.

***

Gəncə RMİ Gəncə şəhər Bülbül adına 3 nömrəli Uşaq musiqi məktəbi Məhsəti Gəncəvi Mərkəzində “Əziz Şuşa, sən azadsan!” adlı konsert proqramı ilə çıxış edib.

***



Sumqayıt RMİ Sumqayıt şəhər S.Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbi “Şuşa İli” münasibətilə Sumqayıt Dövlət Dram Teatrında tədbir keçirib. Tədbirdə məktəbin müəllim və şagird kollektivi musiqi nömrələri ilə çıxış edib. Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev və Sumqayıt Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Fərman Kazımovun çıxışları dinlənilib.

## Biz sizə borcluyuq...



Gəncə RMİ Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı Milli Qəhrəman Şahlar Şükürovun (1952-1990) anadan olmasının 70 illiyi ilə əlaqədar “Qəhrəmanlarımızı tanıyaq və tanıdaq” adlı xatirə gecəsi keçirib.

***

Sumqayıt RMİ Sumqayıt Dövlət Rəsm Qalereyasında Vətən müharibəsi şəhidi Elnur Allahverdizadəyə həsr olunan “25” adlı fotosərgi keçirilib. Azərbaycan Fotoqraflar Birliyi və Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə “Biz sizə borcluyuq” layihəsi çərçivəsində reallaşan sərgidə şəhidin 25 yaşına həsr olunan “küçə fotoqrafiyası” janrında çəkdiyi 25 foto nümayiş etdirilir.

Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi Abdulla Əhmədovun ailəsi ilə görüş keçirilib.

Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşəbbüsü ilə II Qarabağ müharibəsi şəhidi Anar Şükürovun ailəsi ziyarət olunub.

Abşeron rayon MKS-nin 5 nömrəli Mehdiabad qəsəbə kitabxana filialında 2016-cı ilin Aprel döyüşləri və Vətən müharibəsi iştirakçısı Rza Rəcəbli ilə görüş təşkil edilib.

***




Bərdə RMİ Yevlax şəhər şəhid Əsgər Həsənov adına Malbinəsi kənd Uşaq musiqi məktəbində “Haqqın Zəfəri” adlı tədbir keçirilib. İdarə rəisi Vəsilə Möhsümova şəhid Əsgər Həsənovun adını daşıyan bulaq kompleksini ziyarət edib və gül dəstələri düzüb.

***

Xaçmaz RMİ Quba Rayon Tarix-Diyarşünaslıq Muzeyində “Quba şəhidlərinin ev-muzeyləri” adlı kitabın təqdimatı keçirilib. Təqdimatda Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev və Xaçmaz RMİ-nin rəisi Vüsal Hüseynov və digər qonaqlar iştirak edib. Kitab Tarix-Diyarşünaslıq Muzeyi və Vətən müharibəsi şəhidi Rəvan Əliyevin ailəsi ilə birgə ərsəyə gətirilib. Nəşrdə Quba şəhidləri haqqında məlumatlar və fotoşəkillər yer alıb.

## Turizm sənayesi yay mövsümünə hazırlaşır

Mayın 18-də Dövlət Turizm Agentliyinin (DTA) təşkilatçılığı ilə yay turizm mövsümü üzrə hazırlıqlarla bağlı turizm sənayesinin nümayəndələri ilə görüş keçirilib.

Tədbirdə çıxış edən DTA-nın sədri Fuad Nağıyev ölkəmizdə pandemiyadan sonra turizmin canlanmağa başladığını və bu ilin ilk 4 ayı ərzində gələn xarici vətəndaşların ötən illə müqayisədə 2 dəfə çox olduğunu deyib.

Agentlik sədri statistikada daha ciddi fərqli nəticələrə nail olmaq üçün ənənəvi bazarlarla yanaşı, yeni hədəf bazarlarda təbliğat işini gücləndirməyin əhəmiyyətini diqqətə çatdırıb. O, həmçinin ölkəmizə uçuşların sayının artırılması, daha çox ölkə ilə vizasız gediş-gəliş, sərhədkeçmə prosedurlarının asanlaşdırılması kimi amillərin gəlmə turizmi üçün xüsusilə vacib olduğunu vurğulayıb.

Yay mövsümü üçün İsrail, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətər kimi Yaxın Şərq ölkələri, eləcə də Hindistan və Pakistan kimi Asiya ölkələrinin hədəf ölkələr seçildiyi, bu ölkələr üzrə aktiv marketinq tədbirlərinin aparıldığı qeyd olunub.

Görüşdə turizm agentlikləri, hotellər və turizm assosiasiyalarından olmaqla 60-dan çox sənaye nümayəndəsi iştirak edib. Tədbirdə sənaye nümayəndələri ilə müzakirələr aparılıb, onların aidiyyəti sualları cavablandırılıb.

## Daş buğa fiqurları aşkarlanıb

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Salyan Regional İdarəsinin mütəxəssisləri tərəfindən Cəlilabad və Yardımlı rayonlarında yerləşən köhnə qəbiristanlıqlara baxış keçirilib.

Dövlət Xidmətindən bildirilib ki, monitorinq zamanı daş qoç və daş buğa (camış) fiqurları aşkar edilib.

Qeyd olunub ki, Azərbaycan ərazisində ilk dəfə daş buğa fiquru aşkar olunur.

# Özlərini “mədəni toplum” kimi göstərənlərin törətdikləri əməlləri burada görürük

### İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin parlament heyətləri Şuşaya səfər ediblər

*əvvəli səh. 1-də*

Qeyd edək ki, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Bakıda keçirilən konfransının iştirakçıları – Türkiyə, Pakistan, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan parlament nümayəndə heyətləri mayın 18-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada olublar. Qonaqları Milli Məclisin sədri Sahibə Qafarova və digər rəsmi şəxslər müşayiət ediblər.

Qonaqlar əvvəlcə Bakıdan təyyarə ilə Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Onlara 2021-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə qısa müddətdə – doqquz ayda tikilərək istifadəyə verilmiş hava limanının texniki imkanları barədə məlumat verilib. Bildirilib ki, Qarabağın “hava qapısı” adlandırılan Füzuli aeroportu ən müasir səviyyədə inşa olunub və istənilən tip hava gəmisini qəbul etmək imkanları var.

Sonra qonaqlar Füzulidən Şuşaya yola düşüblər. Nümayəndə heyətlərini Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qarşılayaraq, onlara Qala divarları, şəhərin tarixi, işğal dövründəki vəziyyəti və hazırda burada aparılan quruculuq işləri barədə danışıb. Diqqətə çatdırılıb ki, şəhərdəki tarixi abidələr və məscidlər Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında bərpa olunur. Bərpa olunmuş tarixi abidələr, tikiləcək yeni yaşayış binaları barədə də məlumat verilib.

Səfər zamanı qonaqlar Şuşanın Qala divarlarını seyr edib, şəhər meydanı yanında



yerləşən Xüsusi nümayəndəliyin binasında aparılan bərpa işləri ilə tanış olublar. Şəhər meydanında onlara Azərbaycanın görkəmli ədəbiyyat və mədəniyyət xadimləri Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir Hacıbəylinin ermənilər tərəfindən güllələnmiş heykəlləri barədə məlumat verilib.

Məşhur fotojurnalist Reza Deqati heykəllərin önündə qonaqlara Şuşada, həmçinin Vətən müharibəsi dövründə çəkdiyi fotoları nümayiş etdirib, Azərbaycan əsgərlərinin rəşadəti, azərbaycanlıların sülhsevərliyi barədə fikirlərini bölüşüb. Burada qonaqlar onları müşayiət edən media nümayəndələrinə Şuşaya səfərləri barədə təəssüratlarını danışıblar.

Şuşa şəhərində gəzinti zamanı qonaqlara ermənilərin mədəniyyət abidələrimizə vurduqları ziyan, qədim artefaktlarımızı saxtalaşdırmaları barədə də məlumat verilib.

Parlamentarilər Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri ilə də tanış olublar. Bildirilib ki, bu məscidlərdə təmir-bərpa işləri Heydər Əliyev Fondunun dəstəyi ilə aparılır. Diqqətə çatdırılıb ki, bu günlərdə Prezident İlham Əliyev Şuşa şəhərində tikiləcək yeni məscidin təməlini qoyub.

Sonra parlament nümayəndələri Cıdır düzündə olublar. Bildirilib ki, Vətən müharibəsi zamanı qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxıb, canları, qanları bahasına Şuşanı işğaldan azad ediblər. Bu gün Cıdır düzü, işğaldan əvvəl olduğu kimi, yenə də möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.

# Hər muzey bir abidədir

Bu il “Muzeylərin gücü” devizi altında keçirilən 18 may – Beynəlxalq Muzeylər Günü regional mədəniyyət idarələri və tabe müəssisələri tərəfindən müxtəlif tədbirlərlə qeyd olunub.

Beynəlxalq Muzeylər Günü münasibətilə Gəncə RMİ-nin tabeliyindəki Gəncə Qala Qapıları Etnoqrafiya Muzeyi və Nizami Gəncəvi Muzeyinə ekskursiya təşkil edilib.

***

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin əməkdaşları tərəfindən Quba Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiya təşkil edilib.

***

Sumqayıt RMİ Qubadlı Rayon Tarix-Diyarşünaslıq Muzeyində “Muzeylərin gücü – Şuşa muzeyləri” adlı tədbir keçirilib. Çıxış edənlər tariximizi əks etdirən mənəvi dəyərlərimizin qorunduğu, təbliğ edildiyi muzeylərin zənginliyindən və aktuallığından bəhs ediblər. Vaxtilə qala-şəhərimizdə fəaliyyət göstərən muzeylərin erməni vandalları tərəfindən dağıdılıb talan edildiyi diqqətə çatdırılıb.

***



Sabirabad RMİ Şirvan şəhər Heydər Əliyev Mərkəzinin əməkdaşları Beynəlxalq Muzeylər Günü ilə əlaqədar Hacıqabul rayon Heydər Əliyev Mərkəzi və Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər.

***

İsmayıllı RMİ İsmayıllı Rayon Tarix-Diyarşünaslıq Muzeyində Beynəlxalq Muzeylər Günü ilə əlaqədar sərgi keçirilib. İsmayıllı RMİ-nin rəis müavini Həsrət Şabilinin də iştirak etdiyi sərgidə müxtəlif dövrlərə aid eksponatlar, rəsm əsərləri nümayiş olunub.

Qəbələ rayon Mədəniyyət Mərkəzinin Zalam kənd Mədəniyyət evinin təşkilatçılığı ilə Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna “Tarixi abidələrimizi tanıyaq” adı altında ekskursiya təşkil edilib.

***

Ağdaş RMİ Zərdab rayon Həsən bəy Zərdabi Muzeyində “Muzeylər nəsildən-nəslə bir yadigardır” adlı ədəbi-bədii kompozisiya təşkil edilib.

***




Kürdəmir RMİ Kürdəmir Rayon Tarix-Diyarşünaslıq Muzeyində Beynəlxalq Muzeylər Günü münasibətilə keçirilən tədbirdə idarə rəisi Faiq Xudanlı və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Şəmkir RMİ Şəmkir Rayon Tarix-Diyarşünaslıq Muzeyində əlamətdar günlə bağlı tədbir keçirilib. Tədbirdə idarə rəisi Azər Rəcəbov və Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini Aynur Abdullayeva və digər qonaqlar iştirak ediblər.

***




Ağstafa RMİ Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyində “Hər muzey bir abidədir” başlığı altında tədbir keçirilib. Tədbirdə Ağstafa rayon 2 saylı tam orta, S.Vurğun qəsəbə orta məktəbləri şagirdlərinin ifasında şeirlər səsləndirilib.

***

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə “Muzeylərin gücü” adlı tədbir keçirilib. RMİ-nin rəisi Bəxtiyar Qılıncov, Masallı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva və Masallı rayon Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayevanın mövzu ilə bağlı çıxışları dinlənilib.

***

Ağcabədi RMİ Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində “Muzeylər sərvətimizdir” adlı tədbir keçirilib. Qaradağlı və Mahrızlı kənd tam orta məktəblərinin şagirdləri vətənpərvərlik ruhunda və qəhrəman əsgər Rahib Məmmədovun (1967-1987) xatirəsinə həsr olunmuş şeirlər söyləyib, “Xarıbülbül” rəqsini ifa ediblər.

***

Biləsuvar RMİ Neftçala rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları əlamətdar gün münasibətilə Azərbaycan Milli Xalça Muzeyində ekskursiyada olublar.

Biləsuvar Tarix Diyarşünaslıq Muzeyində isə Beynəlxalq Muzeylər Günü münasibətilə sərgi keçirilib.

## “Şuşa İli”nə həsr olunan muğam festivalı

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Şuşa İli” münasibətilə Şuşa rayonu və digər bölgələrin uşaq musiqi və incəsənət məktəbləri şagirdlərinin iştirakı ilə muğam festivalı keçirilir.

İki mərhələdən (I mərhələ regionlar üzrə, II mərhələ final mərhələsi) ibarət festival 9-12 və 13-17 yaş qrupları üzrə keçirilir. Festivalın mayın 20-dək nəzərdə tutulan I mərhələsinin Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və regional mədəniyyət idarələri tərəfindən keçirilməsi nəzərdə tutulub. Artıq Sabirabad, Kürdəmir, Ağstafa, İsmayıllı, Ağcabədi, Ağdaş, Biləsuvar, Lənkəran, Masallı, Şəki, Gəncə və Bərdə RMİ-lərin tabeliyindəki uşaq musiqi məktəblərində hər iki yaş qrupunda xanəndəlik ixtisası üzrə təhsil alan şagirdlər arasında seçim aparılıb.

Münsiflər heyətinin qərarına əsasən, region mərhələsi üzrə 1-ci yerlərin qalibləri final mərhələsində iştirak etmək hüququ qazanıblar. Festivalın finalı Bakı şəhərində Qa-



ra Qarayev adına Mərkəzi İncəsənət Məktəbində keçiriləcək.

## Musiqi və incəsənət məktəbləri şagirdlərinin uğurları

Sumqayıt RMİ Sumqayıt şəhər Q.Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbi Fortepiano şöbəsinin şagirdləri Gülayə Allahverdizadə, Səid Vəlizadə, Atilla Quliyev, Məryəm Abbasova, Aylin Dadaşlı, Solmaz Həsənzadə, Valeriya Olxovaya Bakıda keçirilən İncəsənət olimpiadasında I, Aylin Dadaşlı, İnci Vəlizadə, İbrahim Məmmədzadə II, Ceyran Talıblı, Fidan Həsənli, Mədinə Hacıyeva, Zəhra Kərimova, Səma Vəlizadə, Şəfiqə Əliyeva, Nisə Məlikova, Nəzrin Rüstəmova isə III yerə layiq görülüblər.

Sözügedən müsabiqədə Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbinin şagirdləri də uğur qazanıblar. Fortepiano şöbəsinin 5-ci sinif şagirdləri Fidan Şükürlü laureat adını alaraq diplomla, Nəzrin Şükürzadə isə 3-cü yerə layiq görülərək medal və diplomla mükafatlandırılıb.

Olimpiadada iştirak edən Zəngilan şəhər Uşaq musiqi məktəbi saz şöbəsinin 1-ci sinif şagirdi Sənan Namazov I, 3-cü sinif şagirdi Asi Qəmbərov isə II yerə layiq görülüb.

Abşeron rayon Ceyranbatan qəsəbə Uşaq incəsənət məktəbinin kamançaçılar ansamblı “Astana ulduzları” beynəlxalq onlayn vokal-instrumental yarışmasında I dərəcəli laureat adına layiq görülüb.

## Ağdamda Həmzə Nigari simpoziumu

XIX əsr Türk dünyası sufi ədəbiyyatının görkəmli simalarından olan Həmzə Nigari Qarabağinin xatirəsinə həsr olunmuş növbəti beynəlxalq simpoziumuna bu il Ağdamda keçirilib.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı, “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) və Amasya Universitetinin (Türkiyə) təşkilatçılığı ilə 17-19 may tarixində keçirilən 5-ci Beynəlxalq Həmzə Nigari Simpoziumunun açılışı rayonun Quzanlı qəsəbəsindəki Ağdam Muğam Mərkəzində olub.

Tədbirdə ADMİU-nun müəllim və tələbələrinin ifasında milli rəqslər, Həmzə Nigari şeirlərindən ibarət qiraət təqdim edilib. Ağdam Musiqi Kollecinin “Qarabağ” instrumental ansamblı çıxış edib, İran Aşıqlar Birliyi üzvlərinin Qarabağa həsr olunan musiqiləri səslənib.

Simpoziuma Azərbaycan, Türkiyə, İtaliya, İran, Rusiya, Qazaxıstan, Özbəkistan və Şimali Makedoniyadan alim və tədqiqatçılar qatılıb.

№38 (1911)
20 may 2022
www.medeniyyet.az



# Yaradıcı nəsil davamçıları ilə yaşayır

Hər bir nəsil öz davamçıları ilə yaşayır. Bu mənada yaradıcı insanların övladları, nəvə, nəticələri də istedadlı və yaradıcı olanda o nəsil şəcərəsinin ömrü daha da uzun olur. Əməkdar incəsənət xadimi, bəstəkar Cəlal Abbasov unudulmaz sənətkarımız, görkəmli bəstəkar və musiqi xadimi Əşrəf Abbasovun övladı olaraq, onun sənət və nəsil şəcərəsini layiqincə davam etdirir. Təbii ki, görkəmli sənətkardan öyrənib mənimsədiyi keyfiyyətləri Cəlal müəllim öz daxilindən keçirərək təqdim edir. Amma bu təqdimatda görkəmli Əşrəf Abbasovun adı həm bir ata, həm də bir sənət müəllimi kimi fəxrlə çəkilir...



Uşaq yaşlarından ailəsində eşitdiyi musiqi sədaları ilə böyüyən Cəlal Abbasov Bülbül adına Orta İxtisas Musiqi Məktəbini başa vurduqdan sonra sənət təhsilini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) dahi sənətkar Qara Qarayevin bəstəkarlıq sinfində davam etdirib. Bəstəkarlıq kafedrası nəzdində assistent-stajorluq kursunu da bitirib. Bir sözlə, bəstəkarlıq texnikasının tələblərini peşəkarlıqla mənimsəyən Cəlal Abbasov fərdi yaradıcılıq üslubuna malikdir. O, musiqinin müxtəlif janrlarına müraciət edib. Əsərləri yalnız respublikamızda deyil, dünyanın mötəbər konsert salonlarında musiqi kollektivlərinin ifasında səslənib. Bu sırada "Quator Gaudi" (Fransa), "Seattle Chamber Players" (ABŞ), "Oslo Kammerakademi" (Norveç), "Ensemble Reconsil Wien" (Avstriya), Ukrayna Dövlət Simfonik Orkestri və başqalarını qeyd edə bilərik. Cəlal Abbasovun əsərləri "Music Fabric" (Fransa), "Советский композитор" (Rusiya) kimi nəşriyyatlar tərəfindən çap edilib.

Cəlal Abbasovun əsərlərinin müasir texniki imkanlarla zəngin olmasına baxmayaraq, onun yaradıcılığında xalq musiqisinə maraq mühüm yer tutur. Bəstəkar həm Azərbaycan xalq musiqisinin toplanma, həm də təhlili prosesində də aktiv fəaliyyət göstərir. Naxçıvan, Qarabağ, Gəncə zonalarına folklor-etnoqrafik ekspedisiyaların iştirakçısıdır. Aparılan işlərlə bağlı elmi məqalələrin və mətbu yazıların müəllifidir.

Cəlal Abbasovun yaradıcılığında pedaqoji fəaliyyəti də mühüm yer tutur. O, 2000-ci ildən Azərbaycan Milli Konservatoriyasında bəstəkarlıq sinfi üzrə dərslər aparır.

Bəstəkar müxtəlif janrlı musiqi əsərlərinə və yaradıcılıq fəaliyyətinə görə dəfələrlə təltif olunub. 1982-ci ildə Xalq mahnılarının xor aranjimanı üzrə respublika müsabiqəsinin, 1990-cı ildə Azərbaycan Gənclər İttifaqı mükafatının, 1995-ci ildə S.Yeseninin 100 illiyinə həsr olunmuş respublika müsabiqəsinin, 1998-ci ildə BMT mükafatının, 2000-ci ildə Vətənpərvərlik mahnılarının respublika müsabiqəsinin laureatı olub. 2007-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi" adına layiq görülüb, 2020-ci ildə "Dədə Qorqud" Fondu ilə Azərbaycan Dağ Yəhudiləri İcmasının təsis etdiyi "Milli Qəhrəman Albert Aqarunov" ordeni ilə təltif olunub. 2012-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) katibidir.

Qeyd etdik ki, Cəlal Abbasov Şuşa mühitində doğulub, boya-başa çatan görkəmli bəstəkar Əşrəf Abbasovun övladıdır. Təbii ki, otuzillik Şuşa, Qarabağ həsrəti onun yaradıcılığına təsirsiz ötüşməyib. Məhz bu nisgil bəstəkarın "Səni bir daha görə bilsəydim" adlı simfoniyasında qabarıq şəkildə ifadə olunub. Bəstəkar bu əsəri atasının xatirəsinə ithaf etməklə onun da narahat ruhunu musiqi dilində nəzmə çəkib. 1998-ci ildə yazılan bu əsərə sonra digər hissələr də əlavə olunaraq "Qarabağ trilogiyası" yarandı.

Trilogiyanın II hissəsi – "İn memoriam..." rekviyemi Şuşa şəhərinin müdafiəsində qəhrəmancasına həlak olmuş tankçı Albert Aqarunova, Qarabağ müharibəsinin şəhidlərinə ithaf edilib və ilk dəfə 2019-cu ildə ABİ-nin X qurultayında səslənib.

III hissə – "Şanlı Azərbaycan" odası Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan Ordusunun Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbəni parlaq çalarlarla əks etdirir. Əsər 2021-ci ilin noyabrında Heydər Əliyev Sarayında Zəfər Gününə həsr olunmuş "Qarabağ Azərbaycandır!" konsertində Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor Fəxrəddin Kərimov) və Azərbaycan Milli Konservatoriyasının birləşmiş xoru (bədii rəhbər Leyla Zalıyeva) tərəfindən ilk dəfə dinləyicilərə təqdim edilib. Ölməz şairimiz Məhəmmədhüseyn Şəhriyarın sözlərinə yazılmış bu əsərdə sanki mələklərin dilindən xalqımıza, vətənimizə, müqəddəs torpaqlarımıza dualar və xoş arzular səslənir.

Onu da qeyd edək ki, Cəlal Abbasovun "Qarabağ trilogiyası" 2022-ci ilin Dövlət mükafatına təqdim olunub.

Mayın 16-da ABİ-də Cəlal Abbasovun anadan olmasının 65 illiyinə həsr olunan tədbir keçirildi. Tədbirdə ABİ-nin sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə Cəlal Abbasovun yaradıcılıq fəaliyyətindən söz açaraq onun bəstəkarlıq üslubunun özünəməxsus cəhətlərini vurğuladı, ittifaqın katibi kimi fəaliyyətini də yüksək dəyərləndirərək yeni uğurlar arzuladı.

İttifaqın katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova "Cəlal Abbasovun "Qarabağ trilogiyası" haqqında", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim Xatirə Həsənzadə "Cəlal Abbasovun yaradıcılığına bir nəzər", sənətşünaslıq üzrə fəlsəfə doktoru Natalya Dadaşova "Bəstəkar Cəlal Abbasov: yaradıcılıq kredosu və janr", BMA-nın dissertantı Sevinc Seyidova "Cəlal Abbasovun simfonik yaradıcılığının üslub xüsusiyyətləri", bəstəkar Fərid Fətullayev "Cəlal Abbasovun "Where are you, Ulysses?" əsərində kollajın rolu və əhəmiyyəti" mövzularında çıxış etdilər.

Yubiley tədbirində bəstəkarın əsərlərindən bir neçəsi canlı və video formatda səsləndi. "Sonata – solo violin üçün" (1984) beynəlxalq müsabiqə laureatı Umidə Abbasova, "Sonata – piano üçün" (2013) beynəlxalq müsabiqə laureatı Leyla Parlanova tərəfindən ifa olundu. Həmçinin "Qarabağ trilogiyası"ndan "İn memoriam" rekviyemi (Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında, dirijor Mustafa Mehmandarov) və "Şanlı Azərbaycan" odası (Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Milli Konservatoriyasının tələbə xoru) videoyazı olaraq təqdim edildi.

65 yaşına yaradıcılıq uğurları ilə çatan bəstəkar Cəlal Abbasova bu mənalı ömrün davamını cansağlığı və yeni nailiyyətlərlə yaşamağı arzulayırıq.

**Səadət Təhmirazqızı**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

## Musiqişünas-alim Elmira Abbasovanın 90 illiyi qeyd olunub

Görkəmli musiqişünas-alim, pedaqoq, Əməkdar incəsənət xadimi, professor Elmira Abbasovanın (1932-2009) 90 illiyi münasibətilə mayın 16-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) konfrans-konsert keçirilib.



Tədbiri giriş sözü ilə açan BMA-nın Musiqi tarixi kafedrasının baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Mina Babayeva sənətkarın həyat və yaradıcılığından danışıb.

BMA-nın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli görkəmli alimin musiqi mədəniyyətimizin inkişafında xidmətlərindən, musiqi elmi, musiqi tənqidi və publisistikası, habelə elmi-nəzəri fəaliyyətindən bəhs edib.

Bildirilib ki, Elmira Abbasova müxtəlif nəsillərdən olan görkəmli bəstəkarların və ifaçıların yaradıcılığını araşdırıb. Onun müəllifi olduğu "Cövdət Hacıyev", "Rəşid Behbudov", "Soltan Hacıbəyov", "Səid Rüstəmov", "Qurban Pirimov", "Bəhram Mansurov" və s. kitabçaları, elmi məqalələri Bakıda, Moskvada, keçmiş SSRİ respublikalarında işıq üzü görüb.

BMA-nın elm və yaradıcılıq işləri üzrə prorektoru, professor Gülnaz Abdullazadə Elmira Abbasovanı Üzeyirşünas alim kimi təqdim edib, onunla bağlı xatirələrini bölüşüb, Elmira Abbasovanın 90-cı illərdə çətin bir dövrdə təşkil etdiyi konsert və konfranslardan danışıb.

Əməkdar incəsənət xadimi, BMA-nın professoru İmruz Əfəndiyeva çıxışında Elmira Abbasova ilə birgə iş fəaliyyətindən, onun yetişdirdiyi çoxsaylı tələbələrindən bəhs edib.

Tədbirdə sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ülviyyə İmanovanın məruzəsi də dinlənilib. Sonra konsert proqramı təqdim edilib.

# Bəlkə günahkar "Otello sindromu"dur?

Hər şeyin ifratı pisdir, ziyanlıdır. O cümlədən sevgi və qısqanclığın. Sonda ya yandırıb kül edir, ya da divanəyə çevirib çöllərə salır. Əslində, indi infantillik edən, uzaq gənclikdəki, dəliqanlı çağlardakı rəngli sevda arzulu adamlar da çox deyil. Axtarsan aramızda bir dəsmalı bəhanə edib sevdiyi qadını boğanı avara-gor adlandıranlar da xeylidir. Üstəlik, yeni düşüncəli gənclik bir cıqqan qısqanclıq kandarında ilişənlərə "Sən də Otello sindromuna tutuldun" deyib məzəmmət edir...



Əslində, ilin günün bu vədəsində kilometrlərlə yol getmək, ölkənin bir başından o biri başına "Otello"nun arxasınca "düşmək" də bir az klassik romantizmdir. Pisdirmi? Yox, əlbəttə. Amma müəyyən təzad qığılcımları da var və onu yazının yazılmayan təəssüratında gömürəm...

Mingəçevir Dövlət Dram Teatrı daim diqqət mərkəzimdə olan sənət ocaqlarındandır. İşıqlı şəhər dediyimiz Mingəçevir kimi onun insanları da maraqlı, sənətsevərdir. Daha doğrusu, mədəni istirahətinə zaman ayıracaq qədər rahat. Hə, indi deyə bilmərəm ki, teatr rəhbərliyi, yaradıcı heyət onları park və meydanlardan tamaşa salonuna yığmaq üçün nə dərəcədə maraqlıdır və bunun üçün hansı addımlar atır. Amma görünən odur ki, şəhərdə kifayət qədər potensial yeni nəsil tamaşaçı var və onların istirahət üçün ayırdıqları büdcədən teatra qıymazlıq edəcəklərini düşünmürəm.

Etiraf edim ki, bu kimi fikirlər yola çıxandan beynimin əsas hissəsini zəbt etmişdi. Tamaşadan bir neçə saat əvvəl binanın qarşısındakı sükutu, kassanın önündəki kimsəsizliyi görəndə isə qəribə hisslər keçirdim. Hətta Mingəçevir bulvarındakı insan seli arasından keçdikcə "Kaş, heç olmasa, bunların 30-40 nəfəri teatra gələ" arzusunda bulunmuşdum.

Budur, vədə yetişdi və teatrın sənət sevdalı yeni baş rejissoru, mənə görə fədakarlar qismindən olan Vüsal Mehrəliyev səhnəyə qalxdı. Zala özünəməxsus salamlama etdi. Buna qısa zamanda tanıdığı heyəti, onlardan əvvəl sevdiyi şəhəri və sakinləri, sıx tellərlə bağlandığı teatrı, klassikanı, nəhayət, Şekspiri də qoşdu. Beləcə, həm özünü, həm də heyətini imtahana hazırlaşan tələbə ruhu, səmimi həyəcanı ilə tamaşaçısına təqdim etdi.

"Yad" adı verilən tamaşa Vilyam Şekspirin məşhur "Otello"su əsasında hazırlanıb. Quruluşçu rejissoru Vüsal Mehrəliyev, quruluşçu rəssamı Pakizə Adilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulovdur.

Rejissorun birhissəli səhnə versiyasında rolları əsas etibarilə gənc aktyorlar oynayırlar. Əksəriyyəti həvəskarlardan ibarət heyətin rol bölgüsü də maraqlı idi. Rejissor obrazların xarakteri ilə yəqin ki, aktyorlarının potensialını düzgün tarazlamışdı. Ona görə də ön plana çıxardıqlarına izafi yük verməmişdi. Dolayısı ilə, baş rol, ikinci-üçüncü dərəcəli obraz, əsas plan, ana xəttin daşıyıcısı kimi anlayışlar hakim deyildi.

Odur ki, Asim Əmirov (Otello), Vüsalə Quliyeva (Dezdemona), Hüseyn Mustafayev (Yaqo) və Afiq Yusifov (Kassio) arasında bölgü apara bilmədik. Bu mənada düşünürəm ki, təxmini eyni energetika və potensialda heyət ilə işləyən rejissorun bundan başqa da çıxış yolu yoxdur.

Digər rollara gəlincə, tamaşanın Venesiya Hersoqu Paşa Salmanov, Brabansiosu Elvin Əkbərli, Senatoru Amil Fərzəliyev, Rodriqosu Eyvaz Əliyev, Montannosu Turqut Məsimli, Emilyası Vəfa İsmayılova (dəvətli), Biyankası Ceyhun Əhmədov (bu mövzuya sonda qayıdacağam) idi.

Ondan başlayım ki, arzum çin olmuşdu. Zalda, demək olar ki, boş yer yox idi. Əksəriyyəti də gənclər. Qaranlıqda muncuq kimi parıldayan gözlər səhnəyə zilləndi. Ani keçid ilə bayaqdan səhnənin ortasında qopacaq qiyamətin girişini ifadə edən konstruksiya – ciblərdən başlar çıxdı. Beləliklə, biz başladıq.

Onu da deyim ki, tamaşa haqqında bir kəlmə də tənqidi fikir yazmayacam. Qüsurlar yox idi deyə sual olarsa, kifayət qədər sadalanacaq məqamlar gözə dəyirdi. Amma, gəlin, səhrada çiçək bağçası yaratmaq arzulu insanları bu dəfə sadəcə, təsvir edək.

Tamaşanın əvvəlindən rejissor bizə öz versiyasına qatdığı xüsusiyyətlərin ip uclarını verdi və təbii ki, bunu çoxumuz anladıq. Faciənin bütün iştirakçıları ağ qrimdə-maskada idilər. Ümumən tamaşanın rəngi daha çox tünd-qara, qəhvəyi, göy idi və buna görə də "qara ruhlu adamların bəyaza saldığı ləkəni təmizləmək elə də asan olmur" düşüncəsi mərkəzə çıxdı.



İlk xoreoqrafik elementdə xain Yaqo eşq əbləhi Otellonun üz-gözünü asanlıqla qaraladı. Dekorasiyanın, əslində, texniki baxımdan funksional və bir az da ekssentrik dekorun önünə qoyulan masa üzərindəki örtük qalxır və hər obraz öz rekvizitini götürür. Boş masanın üzərində yalnız qırmızı lent qalır və aktyor onu nümayişkaranə, bir az da ehtiraslı elementlər qataraq baldırına bağlayıb səhnədən çıxır. Aydındır, bizi aktyor-rejissorun sonuncu təhsili müddətində təsirləndiyi formalardan elementlərlə keçid gözləyir.

Əslində, bunu dekorasiyadan da sezmək olardı və daha çox hücrə teatr tərtibatına xas forma səhnədən elə də yad görünmürdü. Elə aktyorların geyimləri də.



Səhnə tərtibatı ağ və qaranın, xeyir ilə şərin mübarizə meydanına oxşayırdı. Qara fona yuxarıdan asılmış üç ağ pərdə və səhnədəki evə (meydan, şəhər, gəmi, liman, ümumən vəziyyətdən asılı olaraq funksiyası dəyişən dekor-dəzgah) dolanmış kəndirlər vizuallığa önəm verən tamaşaçıya hesablanmışdı.

Ümumən son zamanlar qonum-qonşuda, eləcə də Avropa teatrlarında daşınan iri dekorlardan, ağırlıqdan arınması yaxşı haldır. Bunu mingəçevirli rəssamın duyması da. Sadəlik, ümumən postdramatik teatrın az qala sıfır tərtibat tələbi başa düşüləndir. Çünki istənilən mövzunun, xüsusən klassik əsərin, elə götürək bəlkə yüzlərlə quruluşu olan "Otello"nun ənənəvi səhnə tərtibatını vermək izafi zaman və vəsait itkisidir. Həm də müşküldür. Çünki o ranqda quruluşçu rəssamlar artıq heç gündüz də çırağa "gəlmir".

Qayıdaq rejissor versiyasına. Mövzu hamımıza bəllidir. Amma yenə də üzərindən keçək. Təbii ki, quruluş müəllifinin versiyasını irəli çəkmək üçün.

Baxın, postdramatik teatr meyillərinin tüğyan etdiyi, klassikanın sıxışdırıldığı, yaxud üzərində xeyli əməliyyatlar aparılaraq öz donundan çıxdığı bir məqamda yenə də ona – Şekspirə, onun əsərlərinə, xüsusən lənətlənərək sevilən, sevilərək inkar olunan, imtina olunduqca daha çox mənimsənilən "Otello"suna maraq itmir ki, itmir. Bu gün məhz həmin əsər ən müxtəlif versiyalarda dünya səhnələrini dolaşır.

Təbii ki, istənilən teatr adamının – səhnəyə ayaq basıb, hələ mizanlarını düzgün müəyyən edə bilməyən gənc rejissorundan səsi 4-cü oturacaqdan o yana keçməyib, ayağı-ayağına dolaşan gəncinədək hamısının arzusu "Otello"nu qoymaq, Otellonu oynamaq, Otello olmaqdır. Bunun şan-şöhrət vədindən başqa bir mistikası da var.

Vüsal Mehrəliyev isə məsələyə arzu-həyəcan rakursundan baxmayıb. Onu zaman məngənəsində sıxdıqca sıxıb. Bizə əsas mətləbləri ötürüb: insanın daxilini əsir edən naqisliklərə – ağalığa, xəbisliyə, qısqanclığa, lovğalığa, xudbinliyə, şöhrətpərəstliyə qarşı müqavimətini.

Biz burada ayrı-ayrı qəhrəmanların timsalında insan faciələrinin əlvan çeşidlərini də görürük. Sevgisinə, sadiqliyinə rəğmən sevdiyinin öldürdüyü Dezdemona, sevdasına bütün mənalarda qurban gedib, özünü öldürən Otello, xudbinliyin girdabında boğulan Yaqo, divanəliyin məhv etdiyi Rodriqo və ağılsızlığı ucbatından yanlışlarını görməyən Emilyanın simasında biz insanın özü ilə mübarizəsində daim ən böyük məğlubiyyəti daddığını görürük.

Ümumi planda götürsək, rejissor öz istəyinə nail olmuşdu: klassikaya toxunmadan çağdaş tamaşaçı üçün maraqlı həllə nail olub. Üstəlik, məhdud imkanlar və nisbətən adekvat görünməyən (söhbət məhz bu əsərdən gedir) heyətlə baxımlı tamaşa ərsəyə gətirib.

Nəzərə alsaq ki, əsər nəzmlə yazılıb və təxminən iki saat aktyorlar özləri və tərəf-müqabilləri, üstəlik tamaşaçıları ilə sözün birbaşa mənasında oynamalıdırlar, bu zaman məsələnin mahiyyəti dəyişir. Artıq oyunçudan dinamika, təsirli və ifadəli oyunla yanaşı, ümumi ovqata hakimlik də tələb olunur. Bu mənada mənə görə, Mingəçevir teatrının "Yad"ının səhnədəki prosesə ən doğması bizə Yaqonu sevdirən, hətta ona bəraət də istəyən ifaçı idi.

Rejissor istəməsə də, gənc aktyor özünü bu yükün altına ürəklə vermişdi. Öhdəsindən gələcəyinə məhz ən çox özünün inandığı üçün. Bu məqamda dəvətli Vəfa İsmayılova (Emilya) da arzu olunan qonaq hesab edilə bilər. Klassik teatr fədailərimz kimi qadın qiyafəsində bir az məyus, bir az da inadkar görünən Ceyhun Əhmədov (Bianka) isə mübaliğəsiz tamaşanın qurbanı idi. Tamaşaçının fərqinə varmadan güdaza verdiyi qurbanı. Nə bilim, bəlkə də rejissorun...

Yazının adını təsadüfən seçmədim. Məncə, sevmək lazımdı. Amma sindroma çevriləcək qədər yox. Bu mənada istər Vüsal Mehrəliyevə, istərsə də onun sənətdaşlarına çıxdıqları bu yaradıcılıq sevdası yolunda qarşılıqlı məhəbbət diləyirəm. Bir də dözüm. Özü də məharətlə müqavimət və inadla mübarizə dözümü.

**Həmidə Nizamiqızı**
**Mingəçevir-Bakı**

**P.S.** *Mingəçevir teatrında aktrisa qıtlığı probleminə isə qayıdacağıq...*

## Xalq artisti Vaqif Əsədov dünyasını dəyişib



Azərbaycan mədəniyyətinə itki üz verib. Tanınmış teatr rejissoru, Xalq artisti, Prezident təqaüdçüsü Vaqif Əsədov mayın 19-da, 75 yaşında dünyasını dəyişib.

Vaqif Firudin oğlu Əsədov 1947-ci il aprelin 5-də Naxçıvanda anadan olub. 1969-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsini bitirib. 1969-cu ildən 1989-cu ilədək Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor, quruluşçu rejissor, baş rejissor vəzifələrində çalışıb. 1982-1989-cu illərdə Naxçıvan şəhərində fəaliyyət göstərmiş "Cavid" poeziya teatrının rəhbəri olub.

1989-cu ildən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında rejissor kimi fəaliyyət göstərən Vaqif Əsədov tamaşaçı rəğbəti qazanan bir çox səhnə əsərlərinə quruluş verib.

1978-ci ildə respublikanın "Əməkdar artisti", 2006-cı ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülüb. 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif olunub.

Vaqif Əsədov teatr rejissorluğu ilə bərabər bir çox dövlət əhəmiyyətli tədbirlərin, yubiley mərasimlərinin bədii proqramının quruluş müəllifi olub. 2019-cu ildən Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində fəaliyyət göstərirdi.

Allah rəhmət eləsin.

## Tanınmış televiziyaçı Fuad Vəlixanov vəfat edib



Tanınmış televiziyaçı, Əməkdar incəsənət xadimi Fuad Vəlixanov mayın 16-da, 81 yaşında vəfat edib.

Vəlixanov Fuad Zülfüqar oğlu 1 may 1941-ci ildə Bakıda anadan olub. 1965-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. 1965-1969-cu illərdə "Molodyoj Azerbaydjana", "Vışka" qəzetlərində, "Kommunist" nəşriyyatında çalışıb.

1970-ci ildən Azərbaycan Dövlət Televiziyasında redaktor, şöbə müdiri, baş redaktor müavini işləyib. 1992-2006-cı illərdə özəl telekanallarda (BMTİ, ANS, "Lider" televiziyası) bədii rəhbər, proqramlar direktoru və s. vəzifələrdə çalışıb. 2006-cı ildən Azərbaycan Televiziyasına qayıdaraq proqramlar direktoru, Müəllif proqramları və xüsusi layihələr departamentinin direktoru işləyib.

2006-cı ildə "Əməkdar incəsənət xadimi" adına layiq görülüb. Son olaraq İctimai Televiziyada çalışıb.

Allah rəhmət eləsin.

# "Nə məlamət əsər etmiş, görəsən, dildarə?"

**"Şuşanın simaları"**

Mədəniyyət paytaxtımız Şuşa şəhəri mövcud olduğu 270 ildə Azərbaycanın ədəbi-mədəni və elmi mühitinə çoxsaylı tanınmış şəxsiyyətlər bəxş edib. "Şuşa İli" münasibətilə ilin əvvəlindən başlatdığımız "Şuşanın simaları" rubrikasında həmin şəxsiyyətləri tanıtmağa davam edirik. Bu dəfə XIX əsr Azərbaycan ədəbiyyatında, xüsusilə Qarabağ ədəbi mühitində özünəməxsus yeri olan şairlərdən Mirzə Rəhim Fənanı yada salacağıq.

Şuşa şəhərində fəaliyyət göstərmiş "Məclisi-üns"ün yaradılmasının təşəbbüskarlarından olan şair haqqında mənbələrdə səhih məlumat olduqca azdır. Araşdırmalarda qeyd edilir ki, Mirzə Rəhim bəy Mirzəyev (Fəna) 1844-cü ildə (bəzi qaynaqlara görə, 1841) Şuşada dünyaya göz açıb. Atası Mirzə Məmmədbağır vaxtilə Mehdiqulu xanın saray mirzəsi olub. Eyni zamanda xanlığın mədaxil-məxaric işlərinə baxıb. O, 1872-ci ildə dünyasını dəyişəndən sonra oğlu Mirzə Rəhim xanın varislərinin işlərinə kömək edib.

Rəhim ibtidai təhsilini molla məktəbində alır. Sonra Şuşa mədrəsəsində təhsilini davam etdirir. Mirzə Əbdülqasım Kəbirlidən ərəb, fars dillərini mükəmməl öyrənir. Erkən çağlardan poeziyaya maraq göstərir. "Əvvəllər "Aşiq", sonralar isə "Fəna" təxəllüsləri ilə Azərbaycan və fars dillərində şeirlər yazır. Mirzə Rəhim Fəna klassik poeziyanın bir çox janrında qələmini sınayıb. Ancaq əsərlərinin xeyli hissəsi dövrümüzə gəlib çıxmayıb.

"Ağlaram" qəzəli şairin diqqətçəkən bədii nümunələrindəndir. Araşdırmalardan məlum olur ki, müəllif bu qəzəli qəlbində yaşatdığı və məhəbbət bəslədiyi Xurşidbanu Natəvanı nəzərdə tutaraq qələmə alıb:

*Hicran edibdi könlüm evin qarət, ağlaram,*
*Çün ağlamaq olubdu mənə adət, ağlaram.*

*Ta var idi fəraqına tabım, səbur idim,*
*İmdi yoxumdu səbr, nedim taqət, ağlaram.*

*Qəddim fəraqı başıma gətdi qiyaməti,*
*Ta həşr olunca hər dəmu,*
*hər saət ağlaram.*

*Zülfü ruxun xəyalına sərf oldu ruzi-şəb,*
*Ömrümdə ruzi-şəb olmamışam*
*rahət ağlaram.*

Mirzə Rəhim bəy şəhərdə hörmət sahiblərindən biri kimi tanınıb. Xan qızı Natəvan da ona daima hörmətlə yanaşıb, istedad və savadını dəyərləndirib. Günlərin birində Şuşa qəzasının rəisi Dubrovski onun qardaşı Mirzə Kərimi vəzifəsindən azad edir. Bunu özünə hörmətsizlik hesab edən Mirzə Rəhim bəy qəza rəisindən inciyir. Hətta ona əsəbini gizlətmir. Bir gün şəhərin "Bazarbaşı" deyilən hissəsində qəza rəisi ilə qarşılaşır və ona təzim etmir. Hətta üzünü yana çevirir. Bundan bərk hirslənən rəis şairi döyür. O, rəisin əlindən birtəhər çıxaraq Xurşidbanu Natəvanın həyətinə girir. Dubrovski şairin ardınca həyətə daxil olaraq burada da onu döyməyə başlayır. Səs-küyə Natəvan həyətə çıxır. Vəziyyəti görən şairə xidmətçilərə qəza rəisini döyməyi tapşırır. Sonra qəza rəisinə yaxınlaşıb çiynindəki poqonları dartıb qoparır. Özünü də həyətdən qovur. Həmin vaxt Qafqaz valisi Şuşaya gəlir. Dubrovskini üzü-gözü yaralı halda görür və səbəbini öyrənir. Ertəsi gün Xan qızının görüşünə gələn Qafqaz valisi nəzakətlə bildirir: "Rəisə əl qaldırmanıza etiraz etmirəm, ancaq poqonlarını qırmaq dövlətə hörmətsizlikdir". Natəvan cavabında deyir: "Dövlətin təbəələrini suçsuz yerə incitməyə heç kimin haqqı yoxdur, hətta rəisin də". Bundan sonra vali Dubrovskini vəzifəsindən azad edir...

Onu da qeyd edək ki, 1864-cü ildə Mirzə Rəhim Fəna və Hacı Abbas Agahın təşəbbüsü ilə Şuşada "Məclisi-üns" ədəbi məclisi yaradılıb. Sonralar o, məclisin rəhbərlərindən biri olub. Şairin "Məclisi-üns" haqqında



xatirələri ikicildlik "Azərbaycan ədəbiyyatı" əsərinə əlavə şəklində çap edilib. Şeirlərindən nümunələr XX əsrin əvvəlində dövri mətbuatda, habelə Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" və Məhəmməd ağa Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirələrində yer alıb. Tarix və ədəbiyyatla maraqlanan Mirzə Rəhim Fəna eyni zamanda "Tarixi-cədidi Qarabağ" ("Qarabağın yeni tarixi") adlı əsər də yazıb.

Şair bəzən aşiqanə qəzəlində də aşiqin duyğularını dilə gətirmək üçün ictimai məzmun kəsb edən mətləblərdən mövzuya uyğun şəkildə məharətlə istifadə edərək şeirin ideya-bədii baxımdan daha təsirli alınmasına nail olur:

*Nə məlamət əsər etmiş, görəsən, dildarə,*
*Ki, çəkib yardan əl, uydu yenə əğyarə?*

*Hansı məşuqə deyir aşiqinə eşqi unut?*
*Hansı tacirdi rəvac istəmədi bazarə?*

*Bülbüli-zarə deyin, keçdi sənin əyyamın,*
*Vəqt odur kim, tapa yol*
*zağu-zəğən gülzarə.*

*Gülşəni-eşq xəzan buldu,*
*Fəna, oldu xəmuş,*
*Bir də indən belə haşa ki gələ göftarə.*

Qarabağ elinin şeir-sənət mühitində adı hörmətlə çəkilən Mirzə Rəhim Fəna 11 fevral 1931-ci ildə Bakıda vəfat edib.

**Savalan Fərəcov**

# Şuşa və Qarabağ kinolentin yaddaşında

## "Şuşa İli" münasibətilə Dövlət Film Fondundakı sənədli filmlər rəqəmsal formata köçürülüb

Xəbər verdiyimiz kimi, "Şuşa İli" ilə əlaqədar Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər planında Dövlət Film Fondunun (DFF) arxivində Şuşaya həsr edilmiş sənədli filmlərin və xroniki materialların bərpası və mədəniyyət paytaxtımızda nümayiş etdirilməsi də əksini tapıb. Bununla bağlı görülən işlər, eləcə də Şuşa mövzulu filmlər barədə məlumat almaq üçün DFF-yə müraciət etdik.

DFF-nin Kino-arxiv şöbəsinin müdiri Rəşad Qasımov bildirdi ki, burada qorunan Şuşa, eləcə də Qarabağla bağlı bütün filmlər bərpa olunaraq rəqəmsal formata köçürülüb və artıq nümayiş üçün hazır vəziyyətdədir.

Fondun arxivində "Şuşa", "Natəvan", "Bülbül", "Qarabağ yollarında" və digər filmlər qorunur. Bu ekran əsərlərində Şuşa şəhəri və Qarabağın elimizin müxtəlif dövrlər üzrə görüntüləri yer alıb. Həmçinin bu filmlərdə Şuşanın tarixi Azərbaycan şəhəri olduğu və burada milli mədəniyyətimizin görkəmli simalarının yetişməsi haqqında ətraflı məlumatlar var.

İlk tanış olduğumuz ekran əsəri 1968-ci ildə rejissor Musa Bağırov tərəfindən lentə alınan "Bülbül" sənədli filmidir. İkihissəli filmdə ötən əsrin 60-cı illərinin Şuşasının əsrarəngiz gözəlliyini bu kadrlarda görə bilirik. Film xalqımızın sevimli sənətkarı, SSRİ Xalq artisti, Azərbaycan professional vokal məktəbinin banisi, görkəmli opera müğənnisi və musiqi folkloru tədqiqatçısı Bülbülün (1897-1961) anadan olmasının 70 illiyinə həsr edilib.

Film bizi müğənninin uşaqlıq illəri, onun boya-başa çatdığı musiqiçilər yurdu Şuşa şəhəri ilə tanış edir. Kadrlar bir-birini əvəzləyir. Budur, Bülbül Azərbaycan Dövlət Konservatoriyasının tələbəsidir. Avropa vokal mədəniyyətinin mərkəzi Milan şəhəri. Sevdiyi sənətin sirlərinə dərindən yiyələnən Bülbül burada təhsil alır.

Kadrlar böyük sənətkarın həyat və yaradıcılığının ayrı-ayrı mərhələlərini gözlər önündə canlandırır. Filmin ikinci hissəsində Bülbülün səhnə fəaliyyətindən danışılır. Burada şair Süleyman Rüstəm, bəstəkar Qara Qarayev, aktyor, rejissor İosif Tumanov, müğənni İvan Kozlovski Bülbül haqqında xatirələrini söyləyirlər. Filmin rejissoru Musa Bağırov, ssenari müəllifi Kərim Kərimov, operatoru Əlibala Ələkbərov, səs operatoru Şamil Kərimov, direktoru A.Maflidir.

Xocavənd rayonu ərazisindəki Azıx mağarasına həsr edilmiş "Divlər sarayı" elmi-kütləvi filmi də 1968-ci ildə rejissor Musa Bağırov tərəfindən çəkilib. Filmdə həmin dövrdə Azərbaycan arxeoloqları tərəfindən aşkar edilmiş Azıx mağaralarından bəhs olunur. Bu mağaralar öz böyüklüyünə və tarixi əhəmiyyətinə görə dünyada üçüncü, keçmiş SSRİ-də isə birinci böyük mağaradır. Filmdə deyilir ki, arxeoloji qazıntılar zamanı tapılmış nadir əşyalar və insan sümükləri 500-600 min il bundan qabaq həmin mağaralarda qədim insanların yaşadığını bir daha sübut edir. Əsrlərdən yadigar qalmış bu təbii mağaralar müasir və gələcək nəsillərə hələ çox sirr açacaq. Ssenari müəllifləri Məmmədəli Hüseynov, Fəraməz Şəfiyev, operatoru Faiq Qasımov, səs operatoru və musiqi tərtibatı Şamil Kərimov, film direktoru isə Tələt Rəhmanovdur.

"Azərbaycanfilm" Kinostudiyasının istehsalı olan daha bir ekran əsəri "Qarabağ yollarında" adlanır. Film bizə Qarabağ elinin gözəlliklərindən söhbət açır. 1966-cı ildə lentə alınan ekran işində Qarabağın əsrarəngiz təbiətindən, Bərdə, Şuşa, Xankəndi və Əsgəranın tarixi qala və abidələrindən danışılır. Qarabağı musiqisiz, musiqini isə Qarabağsız təsəvvür etmək çətindir. Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Qurban Pirimovun adları kimə tanış deyil? Xan qızı Natəvan, unudulmaz bəstəkarımız, dahi Üzeyir Hacıbəyli və sevimli müğənnimiz Bülbül də bu səfalı elin övladlarıdır. Filmdə qeyd olunur ki, hər obada, hər evdə musiqi sədaları ətrafa yayılır, saf sular kimi axıb min-min ürəyi fəth edir...

Ekranda diktorun səsi eşidilir: "Qarabağa əlvida demək çətindir. Çünki Qarabağdan ayrılmaq mümkün deyil, çünki Qarabağ həmişə ürəklərdədir, onun füsunkar təbiəti, zəngin tarixi, möhtəşəm bu günü bizimdir...".

Yarım əsr əvvəl lentə alınan filmdə səslənən bu fikirlər tamaşaçını kövrəltməyə bilməz. Tarixin səhifələrinə səyahət etdikdə 1960-cı illərin əvvəllərində ermənilərin Qarabağa və Naxçıvana qarşı iddiaları yenidən baş qaldırmışdı. "Qarabağ tarixi" nəşrində oxuyuruq ki, 1963-cü ildə Sov.İKP MK-nın Birinci katibi Nikita Xruşşova Qarabağdan, ona bitişik və erməni əhalisi olan digər rayonlarımızdan 2500-ə yaxın erməninin imzalandığı etiraz məktubu göndərilib. İmzalayanlar Dağlıq Qarabağın



Ermənistan SSR-ə birləşdirilməsini tələb edirdilər. 1965-ci ildə isə "Erməni Gənclər İttifaqı" adlı gizli fəaliyyət göstərən təşkilat və Xankəndi orta məktəblərinin yuxarı sinif şagirdlərindən ibarət olan bir qrup Qarabağ və Naxçıvan da daxil olmaqla, "bütün "erməni" ərazilərinin birləşməsi"nə dair çağırışların yer aldığı vərəqələr yayırdı. 1966-cı ilin avqustunda Sov.İKP MK-nın yeni Birinci katibi Leonid Brejnevə 2000-ə yaxın erməni "ziyalı"sının imzaladığı məktub göndərilmişdi. Məktubda Qarabağın "arazi nöqteyi-nəzərindən və milli tərkibinə görə, xüsusiyyətlərinə, mənəviyyatına və məişətinə görə" yaxın olduğu Ermənistana birləşdirilməsi çağırışı yer almışdı...

Həmin vaxt Azərbaycan SSR DTK-nın sədr müavini vəzifəsində çalışan ulu öndər Heydər Əliyev sonralar həmin illəri belə xatırlayırdı: "Yadımdadır, ya 1966-cı, ya da 1967-ci il idi, Moskva tərəfindən qərar qəbul olundu. Həmin vaxt Vəli Axundov məni yanına çağırtdırdı. Bu, Sov.İKP MK-nın qərarı idi; yazırdılar ki, Azərbaycan KP MK-ya, yeni Axundova və Ermənistan KP MK-ya, yeni Koçinyana bu məsələni müzakirə etmələri və məruzə etmələri tapşırılsın. Bu nə demək idi? Bu o demək idi ki, Azərbaycan məsələsini həll etmək Ermənistana tapşırılır... Mən ona dedim ki, bu məsələni Moskvada Brejnevlə müzakirə etmək daha yaxşı olardı. O, gedib bunu Brejnevə izah etdi və Brejnev qərarı ləğv etdi...".

Bədnam qonşularımız 90-cı illərin əvvəllərində əzəli yurd yerlərimizi işğal etməklə xain istəklərinə nail olduqlarını düşünürdülər. Ancaq 30 ildən sonra şanlı Azərbaycan Ordusu dəmir yumruğa çevrilib erməni vandallarının başını əzdi, yurdumuzu düşməndən azad etdi. Bu gün biz Qarabağ yollarında, Qarabağın özündəyik, Şuşadayıq. Minillik mədəniyyətimizi yenidən əzəli məkanına qaytarırıq...

Filmin rejissor və operatoru Əlibala Ələkbərov, ssenari müəllifi Məmməd Mərdanov, səs operatoru Şamil Kərimov, direktoru A.Şuşkindir.

1976-cı ildə "Azərbaycanfilm"də lentə alınan "Üzeyir Hacıbəyov" sənədli filmi ağ-qara variantdadır. Film Azərbaycan və rus dillərində çəkilib. Rus variantı 1977-ci ildə işlənib hazırlanıb. Xalq artisti, rejissor Xamis Muradov tərəfindən lentə alınan filmdə Azərbaycan xalqının görkəmli sənətkarı, milli operamızın banisi, istedadlı bəstəkar, jurnalist, dramaturq, pedaqoq, ictimai xadim Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından, əsərlərinin səhnə təcəssümündən, onun ev-muzeyindən söhbət açılır. Ssenari müəllifi Kərim Kərimov, səs operatoru isə Şamil Kərimovdur.

"Azərbaycanfilm" Kinostudiyasında bir sıra bədii və sənədli filmlərə quruluş verən Əməkdar incəsənət xadimi, rejissor Nicat Bəkirzadənin "Şuşa" adlı sənədli filmi 1978-ci ildə lentə alınıb. Bu rəngli filmdə Azərbaycanın ən gözəl guşələrindən olan Şuşa şəhərinin qədim tarixindən, həmin dövrdəki həyatından, dağlar diyarının təkrarolunmaz təbiətindən danışılır.

Filmin ssenari müəllifi Məmməd İsmayıl, operatoru Ələsgər Ələkbərov, Vladimir Dmitriyevski, səs operatoru Akif Nuriyev, redaktoru Vaqif Məmmədov, direktoru Xanlar Cəfərovdur.

Ta qədim zamanlardan heyvandarlıqla məşğul olan babalarımız qışı aranda, yayı yaylaqda keçirərdilər. İndi də bir sıra bölgələrimizdə bu ənənə davam etdirilir. Elə ki, yaz gəldi respublikamızın dağ bölgələrinin yolları qoyun sürüləri ilə dolur, sonra da tezliklə çəkilib uzaqlaşır. Əlbəttə, köçün də öz ənənələri, qayda-qanunları var.

1983-cü ildə lentə alınan "Köç" sənədli filmində maraqlı mənzərənin şahidi oluruq. Dağlar qoynu, gözəl təbiət insani valeh edir. Filmdə tamaşaçılar Jdanov (indiki Beyləqan), Laçın və başqa dağlıq bölgələrdə çobanların həyatı ilə tanış olurlar. Rejissor Zaur Məhərrəmovun filmi 2003-cü ildə keçirilən "Bizim naməlum kino – 2" festival-müsabiqəsində rejissor işinə görə mükafata layiq görülüb. Ssenari müəllifi Vidadi Paşayev, səs operatoru Akif Nuriyev, redaktoru Eldəniz Quliyev, direktoru Xanlar Cəfərovdur.



"Natəvan" filmi isə 1982-ci ildə lentə alınıb. Rejissoru Xamis Muradov, ssenari müəllifi Məmməd Araz, operatoru Vladimir Konyagin, səs operatoru Şamil Kərimov, redaktoru Azər Əbilov olan film görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın (1832-1897) 150 illik yubileyi münasibətilə çəkilib. Kinolentdə şairin ədəbi yaradıcılığı ilə yanaşı, nəinki Azərbaycanda, eləcə də bir sıra Şərq ölkələrində böyük şöhrət qazanmış əlvan naxışlı əl işləri, zərif butalı tikişləri, rəsmləri, fransız yazıçısı Aleksandr (ata) Dümanın ona bağışladığı fil sümüyündən şahmat fiqurları, dağlardan Şuşaya çəkdirdiyi içməli su xətti öz əksini tapıb.

Hər bir film haqqında məlumat əldə etməyimizə yaratdıqları şəraitə görə DFF-nin əməkdaşları Rəşad Qasımova və Babək Abbaszadəyə təşəkkürümüzü bildiririk.

***

Sonda isə adlarını çəkdiyimiz filmlərdən bir neçəsinin rejissoru olmuş Əməkdar incəsənət xadimi, professor Musa Bağırov haqqında bir neçə kəlmə.

Uzun illər "Azərbaycanfilm"də və "Ekran" yaradıcılıq birliyində çalışan M.Bağırov 50-dən artıq sənədli filmə quruluş verib. O, 1994-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kino və televiziya kafedrasının müdiri təyin edilib. 1997-ci ildə həmin kafedranın bazasında Televiziya rejissorluğu və Kinorejissorluq və operator sənəti kafedraları yaradılıb. Televiziya rejissorluğu kafedrasına rəhbərlik edən M.Bağırov eyni zamanda general Həzi Aslanovla bağlı araşdırmaların müəllifidir, "Generalın yolu" (1988), "Sərkərdənin taleyi" (1999) kitablarını çap etdirib. 2010-cu ildə öz şəxsi kitabxanasını Dövlət Film Fonduna hədiyyə edib.

Bu il mayın 10-da 90 yaşı tamam olan Musa Bağırov elə həmin gün dünyadan köçüb. Həzi Aslanov haqqında iki filmin və iki kitabın müəllifi olan rejissor generalın ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsinin əsas səbəbkarlarındandır. O, ömrünün 25 ilini bu işə sərf edib, Belarus, Rusiya və Ukraynada tədqiqatlar aparıb. Nəhayət, SSRİ-nin mövcud olduğu son ildə (1991) bu məqsədinə – cəsur generalın ölümündən sonra ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adını almasına nail olub...

**Lalə Azəri**

# Yaradan əllərin uğuru

Xalq rəssamı, görkəmli tişə ustası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü Natiq Əliyev Dünya Rəssamlıq Akademiyasına həqiqi üzv seçilib. Bir ölkə üçün milli mütərəqqi, ümumbəşəri mənəvi dəyərləri qoruyub saxlayan, onları hifz edən başlıca amillərdən biri, bəlkə də birincisi onun mədəniyyəti və incəsənəti ilə bağlı inkişafıdır.

Natiq Əliyev ölkəmizdə və onun hüdudlarından kənarda Azərbaycan plastika sənətinin adını yüksək tutan sənətkarlardandır. Onun müəllifi olduğu əsərlər – Sankt-Peterburqda 1941-1945-ci illər müharibəsində həlak olmuş həkim və tələbələrə həsr olunmuş abidə (1985), Kiyevdə (2004), Tiflisdə (2007), Həştərxanda (2010), Belqradda (2011) ümummilli lider Heydər Əliyevin abidələri, Xocalı soyqırımına həsr olunmuş Sarayevo (2012), Mexiko (2012) və Ankarada (2013) monumentlər, Üzeyir Hacıbəylinin Serbiyanın Novi Sad şəhərində (2011) qoyulmuş heykəli və digər bir sıra tanınmış şəxslərin xatirəsinə həsr olunmuş abidələr Azərbaycan müasir plastika sənətinin dünyada tanınmasına zəmin olan nümunələrdir.

Natiq Əliyevin yaradıcılığının başlıca xüsusiyyəti ondan ibarətdir ki, onun yaradacağı heykəl harada qoyulacağından asılı olmayaraq – istər ucqar kənddə və yaxud şəhər mərkəzində olsun – hər birinə sənətkarın münasibəti eynidir, heykəllərin hər biri yüksək sənət nümunəsidir. Qazax şəhərində qoyulmuş aşıq Ədalətin qəbirüstü abidəsində, I Fəxri xiyabanda Xalq artisti Habil Əliyevin, akademik Rəfiqə Əliyevanın, Xalq şairi Zəlimxan Yaqubun, Xalq yazıçısı İlyas Əfəndiyevin, Xalq artisti Amaliya Pənahovanın qəbirüstü abidələrində sənətkarın sənətə münasibəti açıq duyulmaqdadır. Natiq Əliyevin yaradıcılığında monumental heykəltəraşlıqla yanaşı, memarlığın bir hissəsinə çevrilmiş memorial-xatirə lövhələri də geniş yer tutur. Bu səpkili əsərlər arasında onun Məmməd Səid Ordubadi, Abdulla Şaiq, Xurşidbanu Natəvan, Cəlil Məmmədquluzadə, Şövkət Ələkbərova, Mirvarid Dilbazi və başqa görkəmli şəxsiyyətlərlə bağlı memorial lövhələri, estetik görünüşü və bədii konsepsiyası ilə yerləşdiyi memarlıq mühitinin görkəminə uyğun gəlməklə bərabər, Bakı sakinlərinin və qonaqlarının gözünü oxşamaqdadır.

Sənətkarın yaradıcılığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Bu isə yaradıcı şəxs üçün böyük motivasiyadır. İncəsənət nümayəndələrini daima diqqətdə saxlayan



dövlət başçımız İlham Əliyevin sərəncamı ilə Natiq Əliyev 2005-ci ildə Azərbaycan təsviri sənətində göstərdiyi xidmətlərə görə "Xalq rəssamı" fəxri adı , 2018-ci ildə "Şöhrət" ordeni ilə təltif edilib.

Qazandığı növbəti uğur münasibətilə görkəmli heykəltəraşımızı ürəkdən təbrik edir, ona yaradıcılığında hər zaman yüksək zirvələri fəth etməyi arzu edirik. Yaradan əllər var olsun!

**Nərminə Rzayeva**
**ADRA-nın İncəsənət tarixi kafedrasının müəllimi**

# Heyrətlənmək gücü sonsuz olanda

## Rəngkar Xuday İbrahimovun yubiley portreti

Milli təsviri sənətimizin son qərinəyə təsadüf edən inkişaf mənzərəsində yaradıcılığı gerçəkliyə fərqli bədii münasibəti ilə diqqətçəkən rəssamlardan biri də istedadlı rəngkar, Azərbaycan Rəssamlar İttifaqının üzvü Xuday İbrahimovdur. O, ölkəmizdə müxtəlif miqyaslı sərgilərdə fəal iştirak edərək sənətkar "mən"inin fərdi məziyyətlərlə başqalarından seçildiyini təsdiqləmişdir.

Bu il 60 yaşını qeyd edən rəssamın yaradıcı portretini yaratmaq cəhdimiz təkcə bu əlamətdar günlə bağlı olmayıb, əslində, onun dünyaya özünəməxsus baxış sərgiləməsini dəyərləndirmək və ictimailəşdirmək məqsədi daşıyır.

Öncə qeyd edək ki, rəssamın sənətdə fərdi baxış nümayiş etdirməsinin nəticəsidir ki, ərsəyə gətirdiyi əsərlər bədii şərhinin orijinallığına görə tamaşaçısının ixtiyarını əlindən almaq, onu ovsunlamaq gücündədir. Qənaətimizcə, Xuday İbrahimovun tanış mövzu və motivlərə bu qədər cəlbedici və düşündürücü görkəm verməsinin kökündə ilk növbədə müəllifin onu əhatə edənləri daha dərindən müşahidə etməsi, gördüklərindən qeyri-adi tutumda heyrətlənmək gücü dayanır. Odur ki, bu yerdə yaradıcı adamlara yönəli məşhur "Hamı baxır, amma hamı görmür" deyimini yada salmamaq olmur. Doğrudan da, Xuday İbrahimovun özünəməxsus "baxış bucağı"ndan uzaq-yaxın tariximiz, adları dilimizin əzbəri olan şəxsiyyətlərimiz, çoxlarına yaxşı tanış olan məkanlarımız və təbiət motivlərimiz əvvəlkilərdən çox fərqli görünməkdədir...

Bakıda (1981-1986) və Daşkənddə (1989-1994) xüsusi ixtisas təhsili alan Xuday İbrahimovun müstəqillik dövrünə təsadüf edən yaradıcılığı mövzu və janr rəngarəngliyi ilə seçilir. Onun süjetli kompozisiyalara daha çox meyil etməsini isə müəllifin məlum hadisələri rənglərin dili ilə əyaniləşdirmək, keçmişlə gələcək arasında mənəvi əlaqə yaratmaq, sələflərimizin yaşadıqlarını xələflərinə ötürmək istəyi ilə bağlamaq olar. Bu mənada "Müdriklərin söhbəti", "Kənddə Novruz bayramı", "Çayxana", "Mis şəhər", "Qəribə şəhər", "Xalça və xalçaçılar şəhəri", "Milli dəyərlərimizi qoruyaq!", "Şirvanşahlar sarayı", "İllüziya", "Təbiət qoynunda məşvərət", "Zamanın işi" və s. tablolarında tamaşaçısını dialoqa çəkmək gücündə olan məqamlar kifayət qədərdir.

Öz yaradıcılığında realizm cərəyanı estetikasından istifadə etməsinə və görüntüyə gətirdiklərinin duyulası aydınlığına baxmayaraq, rəssamın əksər kompozisiyalarında fikir "aysberqliyi" duyulmaqdadır. Yəqin ki, bu cür yanaşma əsas fikri "gizlətməkdən" daha çox, onların çoxqatlı – seyrçini duyğulandırmaq gücündə olduğunu sərgiləmək məqsədi daşıyır. "Çayxana" əsərində nəhəng samovar ətrafında sıralanmış masalarda qərarlaşan müxtəlif yaşlı, fərqli maraq daşıyıcısı olan insanları bir araya gətirən rəssam, bu müxtəlifliyin təbii və cəlbedici görkəm almasını şərtləndirmişdir. Sinəsi sazlı aşığın məkana bəxş etdiyi nikbin el havasının içilən çayın ləzzətinə, mükalimə mövzusuna çevrilən məsələlərin məzmununa rəng qata biləcəyi də duyulandır. Qənaətimizcə, bir



qədər də təxəyyül nəticəsi olan bu gözoxşayan mənzərəyə müəllifin bədii tutum verməsinin alt qatında, bu cür mənzərələrin indiki şəraitdə yox dərəcəsində olması, əvəzində "gecə klubları"nın çoxalmasından narahatlıq hissi duyulmaqdadır...















Rəssamın dağ kəndindəki Novruz bayramına verdiyi bədii görkəmdə ("Kənddə Novruz bayramı"), üç qocanın söhbətində ("Şirin söhbət"), zirvəsi qarlı dağların mükaliməsində ("Müdriklərin söhbəti"), misgərliyin unudulmasının xatırlanmasında ("Mis şəhər"), milli dəyərlərə biganəliyi qınayan münasibətində ("Milli dəyərlərimizi qoruyaq!") rəssamın həm də vətənpərvərliyini əks etdirən mənəvi-psixoloji dəyərlərin təqdimatı qabarıq duyulur.

Xuday İbrahimovun yaradıcılığının yaddaqalan xüsusiyyətlərindən biri də onun ayrı-ayrı əsərlərini hamıya yeni və maraqlı görünə biləcək, ən başlıcası isə, duyğuladırıcı tutumda mənalandıra bilməsidir. Bu baxımdan onun "Nar yetişdi" əsərindəki rənglərdən "boylanan" obrazlı təqdimatını xüsusi vurğulamaq istərdik. Nar ağacları ilə vəhdətdə verilmiş gözəllərin təsviri xalq mahnısının "Bu gələn yar olaydı, yaxası nar olaydı. İkimiz bir köynəkdə, yaxası dar olaydı..." misraları ilə necə də həmahəng səsləşir...

Kənddən əziz babasının görüşünə tələsən nəvənin sevincini ("Baba, biz gəldik!"), şəhidlik zirvəsinə ucalan gəncin dəfnindəki el kədərini ("Şəhid dəfni"), yaradıcı ümidləri qırılmış gənc rəssamın yoxluğunu ("Bir rəssam vardı"), çoxsaylı bədii ayrıntılardan tərtib olunmuş əsərlərin dominantına çevirməklə, kompozisiyaların bütövlüyünü əldə etməsini müəllifin mövzuya özünəməxsus yanaşmasının nəticəsi hesab etmək olar.

Rəssamın məşhur şəxsiyyətlərin obrazlarına müraciətində də fərqli bədii münasibət duyulmaqdadır. Dahi İmadəddin Nəsimi və görkəmli söz xiridarı Molla Pənah Vaqifə həsr olunmuş portretlərində onları səciyyələndirən ikonoqrafik əlamətlər məşhurların ömür yolu ilə bağlı ayrıntılarla zənginləşdirildiyindən, obrazlar tamaşaçı üçün daha zəngin görünməkdədir. Taleyini Şuşa ilə bağlayan Vaqifi Yuxarı Gövhər ağa məscidi, Nəsimini isə Şirvan mənzərəsi ilə əlaqəli təqdim edən müəllifin bu cür "tanınma nişan"ları həm də tarixə bələdliyinin göstəricisidir.

Milli tariximizin yaşadılması Xuday İbrahimovun yaradıcılığından qırmızı xətt kimi keçir desək, yanılmarıq. Rəssamın mənzərə janrında çəkdiyi "Gəncədə İmamzadə ziyarətgahı", "Günəşli İçərişəhər", "Şuşa tutu", "Şah Abbas məscidi", "Kəpəzin ətəklərində" və digər neçə-neçə əsərdə mövcud məkanların ümumi görkəmini gələcək nəsillərə çatdırmaq istəyi qabarıqdır. Lakin bu cür yanaşma, sadəcə, zahiri oxşarlığın əldə edilməsindən ibarət olmayıb, həm də görünənlərin qürurverici qəbul olunmasına xidmət edir.

Xuday İbrahimovun bir qərinəlik yaradıcılığının məntiqli məna-məzmun yükünə görə yaddaqalan, milli təsviri sənət saxlancımıza layiqli töhfə olduğunu söyləmək olar. Odur ki, onun altmış yaşın zirvəsindən dönüb geriyə – ərsəyə gətirdiklərinə qürurla baxmağa tam haqqı çatır. Bunu söyləməyə onun müxtəlif mövzulu əsərlərinin hər birinin ayrı-ayrı janrların "estetik xəritəsi"ni genişləndirməyə xidmət etməsi əsas verir...

**Ziyadxan Əliyev**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi — 21-24 may

### Azərbaycan

**21 may 1922** – Şairə, dramaturq Cahan Hüseyn qızı Əfruz (Dilanova; 1922-1984) Tovuz rayonunda doğulub.

**21 may 1928** – Tanınmış aktrisa, Azərbaycanın Əməkdar artisti, Rusiyanın Xalq artisti Tamilla Mirsüca qızı Ağamirova (1928 – 31.8.2021) Bakıda anadan olub. 1952-ci ildən Moskvada "Romen" teatrında çalışıb. "Azərbaycanfilm" Kinostudiyasında "Onun böyük ürəyi", "Koroğlu", "Əsl dost", "Yenilməz batalyon" filmlərinə çəkilib.

**21 may 2021** – Azərbaycanın, Rusiyanın və keçmiş SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Tahir Teymur oğlu Salahov (29.11.1928 – 2021) vəfat edib. Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti olub. Məşhur əsərləri: "Bəstəkar Qara Qarayevin portreti", "Təmirçilər", "Səhər eşelonu" və s.

**22 may 1888** – Yazıçı, maarif xadimi Qantəmir (Qafur Sədrəddin oğlu Əfəndiyev; 1888 – 28.1.1944) Göyçay mahalının Potu kəndində anadan olub. 1939-cu ildə Orta Asiyaya sürgün edilib, orada dünyasını dəyişib.

**22 may 1918** – SSRİ Xalq artisti, görkəmli rejissor, teatrşünas, professor, Dövlət mükafatı laureatı Mehdi Əsədulla oğlu Məmmədov (1918 – 28.1.1985) Şuşada doğulub. Gəncə Dram, Akademik Opera və Balet, Akademik Milli Dram, Rus Dram teatrlarında baş rejissor işləyib. Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) sədri olub. "Onu bağışlamaq olarmı?" filmində çəkilib.

**22 may 1928** – Xalq rəssamı Nadir Sadıq oğlu Qasımov (1928 – 10.3.2000) Bakıda anadan olub. Yaradıcılığında portret janrı və mənzərə əsərləri xüsusi yer tutur. Əsərləri Tretyakov qalereyasında (Moskva), MDB ölkələrinin muzeylərində saxlanılır.

**22 may 1937** – Bəstəkar, Xalq artisti Aqşin Əliqulu oğlu Əlizadə (1937 – 3.5.2014) Bakıda anadan olub. "Babək", "Qafqaza səyahət" baletləri, kantata, simfoniya və digər janrlarda əsərlərin müəllifidir. Filmlərə ("Tütək səsi", "Sizi dünyalar qədər sevirdim") musiqi yazıb.

**23 may 1524** – Azərbaycan Səfəvilər dövlətinin banisi, böyük sərkərdə, şair Şah İsmayıl Xətai (17.7.1487 – 1524) vəfat edib. Ərdəbildə Şeyx Səfi məqbərəsində dəfn olunub.

**23 may 1905** – Əməkdar artist, rejissor Heydər Məşədi Aslan oğlu Şəmsizadə (1905-1981) Şuşada doğulub. Ağdam Dövlət Dram Teatrında çalışıb, Aşqabaddakı Azərbaycan teatrında tamaşalar qoyub.

**23 may 1919** – Xalq yazıçısı Hüseyn Məmmədəli oğlu İbrahimov (1919 – 10.4.2008) Naxçıvan MR Şərur rayonunun Şahtaxtı kəndində doğulub. "Şirin xatirə", "Bahar yağışı", "Qu quşları öləndə oxuyurlar" və s. kitabların müəllifidir.

**23 may 1959** – Əməkdar incəsənət xadimi, pianoçu İbrahim Hacıbaba oğlu Quliyev (1959 – 16.1.2010) anadan olub. Beynəlxalq Muğam Mərkəzinin direktoru (2009-2010) işləyib.

**23 may 1961** – Əməkdar incəsənət xadimi, bəstəkar Nailə Ağabala qız Mirməmmədli (1961 – 4.1.2021) Bakıda anadan olub. Xalq mahnılarını xor üçün işləyib, filmlərə musiqi yazıb.

**23 may 1986** – Xalq artisti, rejissor, Azərbaycan musiqili teatrının yaradıcılarından biri Şəmsi Bədəl bəy oğlu Bədəlbəyli (23.2.1911 – 1986) vəfat edib. Filarmoniyanın, Musiqili Komediya Teatrının direktoru, Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) sədri olub.

**24 may 1874** – Görkəmli şair, tərcüməçi Abbas Səhhət (Abbasqulu Ələbbas oğlu Mehdizadə; 1874-1918) Şamaxıda anadan olub. Rus, ərəb, fars, gürcü və fransız yazıçılarının əsərlərindən tərcümələr edərək "Məğrib günəşləri" (iki cilddə) adlı kitabında (1912) çap etdirib.

**24 may 1879** – Publisist, teatr xadimi Mehdi bəy Süleyman bəy oğlu Hacınski (1879-1941) anadan olub. "Nicat" xeyriyyə cəmiyyətinin teatr bölməsinə rəhbərlik edib.

**24 may 1893** – İlk azərbaycanlı qadın pianoçulardan olan Xədicə Qayıbova (1893 – 27.10.1938) Tiflisdə doğulub. Fortepianoda muğamların ifaçısı kimi məşhurlaşıb, pedaqoji fəaliyyət göstərib. Repressiya qurbanıdır.

**24 may 1893** – Ədəbiyyatşünas Mustafa Zəkəriyyə oğlu Quliyev (1893-1938) Şəkidə anadan olub. Xalq maarifi komissarı (1922-1928) işləyib. Repressiya qurbanıdır.

**24 may 1898** – Publisist, dramaturq, tərcüməçi Mirzə Bala Məmmədzadə (1898 - 8.3.1959) Bakının Zirə kəndində doğulub. 1924-cü ildə İrana, oradan Türkiyəyə mühacirət edib. Azərbaycan mühacirətinin mətbu orqanlarında yazılar yazıb, İstanbulda vəfat edib.

**24 may 1899** – Şairə Ümgülsüm Sadıqzadə (1899-1944) Bakının Novxanı kəndində doğulub. 1937-ci ildə həyat yoldaşı, yazıçı Seyid Hüseyn repressiya edilərək güllələnib, Ü.Sadıqzadə Mordoviya həbs düşərgəsinə göndərilib. 1944-cü ilədək həbsdə qalıb.

**24 may 1913** – Aşıq Ağalar (Ağalar Bilal oğlu Mikayılov; 1913-1988) Ağsu rayonunda Qəşəd kəndində doğulub.

**24 may 1925** – Ədəbiyyatşünas, türkoloq, həkim Cavad Heyət (1925 – 12.8.2014) Təbrizdə doğulub. "Azərbaycan ədəbiyyat tarixinə bir baxış", "Türklərin tarix və mədəniyyətinə bir baxış" və s. əsərlərin müəllifidir. Azərbaycan dilində "Varlıq" jurnalını nəşr etdirib.

**24 may 1930** - Şair, tərcüməçi Əli Səngərli (Məmmədov; 1930 – 23.4.2009) Borçalı bölgəsinin Faxralı kəndində anadan olub.

**24 may 1948** – Xalq artisti Fuad Ağarəhim oğlu Poladov (1948 – 5.5.2018) Bakıda doğulub. Akademik Milli Dram, Rus Dram teatrlarında çalışıb. Kinoda ("Güllələnmə təxirə salınır!...", "Ovsunçu", "Küçələrə su səpmişəm" və s.), televiziya tamaşalarında xarakterik obrazlar qalereyası yaradıb.

**24 may 1967** – Ədəbiyyatşünas, yazıçı-dramaturq, dövlət xadimi Şıxəli Qurban oğlu Qurbanov (16.8.1925 – 1967) vəfat edib. "Əcəb işə düşdük", "Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu" və s. pyeslərin müəllifidir.

**24 may 1984** – Əməkdar artist, xanəndə Haşım Səmədbəy oğlu Kələntərli (1899, Lənkəran – 1984) vəfat edib. Akademik Opera və Balet Teatrında çalışıb.

### Dünya

**21 may 1471** – Alman boyakarı, qravüraçı və incəsənət nəzəriyyəçisi, İntibah dövrünün məşhur rəssamı Albrext Dürer (Albrecht Dürer; 1471-1528) anadan olub.

**21 may 1906** – SSRİ Xalq artisti, rejissor, aktyor Sergey Gerasimov (1906-1985) anadan olub.

**22 may 1813** – Alman bəstəkarı, dramaturq Rixard Vaqner (Wilhelm Richard Wagner; 1813-1883) anadan olub. Operaları: "Tristan və İzolda", "Nibelunqlar üzüyü" (tetralogiya).

**22 may 1859** – İngilis yazıçısı Artur Konan Doyl (Arthur Conan Doyle; 1859-1930) anadan olub.

**22 may 1891** – Alman şairi, incəsənət nəzəriyyəçisi Yohannes Bexer (Johannes Robert Becher; 1891 – 11.10.1958) anadan olub.

**23 may 1891** — İsveç yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1951) laureatı Fabian Lagerkvist (1891-1974) anadan olub. Əsərləri: "Cəllad", "Cırtdan", "Varavva", "Savilla" və s.

**24 may 1899** – Belçika əsilli fransız şairi, rəssam Anri Mişo (1899-1984) anadan olub.

**24 may 1905** – Rus yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1965) Mixail Şoloxov (1905 - 21.2.1984) anadan olub. Əsərləri: "Sakit Don", "Oyanmış torpaq", "İnsanın taleyi" və s.

**24 may 1940** – Rus şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1987) İosif Aleksandroviç Brodski (1940 – 26.1.1996) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Türk dünyasının gələcəyini təyin edəcək mühüm faktor ortaq mədəni irsimizdir



İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Bakıda keçirilən konfransında iştirak edən Özbəkistan Respublikası Ali Məclisi Qanunvericilik Palatasının deputatları mayın 17-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda olublar. Görüş çərçivəsində Türk dünyasının böyük söz ustadı, özbək şairi Əlişir Nəvainin 580 illik yubileyinə həsr olunmuş tədbir və fondun himayəsi ilə çap olunan "Əlişir Nəvai. Əsərləri" kitabının təqdimat mərasimi təşkil edilib.



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qonaqları salamlayaraq təşkilatın məqsəd və fəaliyyəti barədə danışıb. Özbək xalqının qədim mədəniyyəti, dünya elminə və mədəniyyətinə töhfələr bəxş etdiyi şəxsiyyətləri, memarlıq abidələri ilə Türk dünyasında xüsusi yerə sahib olduğunu deyən Günay Əfəndiyeva Özbəkistan ilə əməkdaşlığın təşkilat üçün önəmini vurğulayıb. Fond tərəfindən Özbəkistanın qədim irsinin tanıdılması istiqamətində layihələrin nəzərdə tutulduğu diqqətə çatdırılıb.

Qeyd olunub ki, belə layihələrdən biri təşkilat tərəfindən Əlişir Nəvainin 580 illiyi münasibətilə çap olunan kitabdır. Əlişir Nəvainin şeirlərinin yer aldığı kitabı özbək miniatürləri bəzəyir. "Nəvainin şah əsəri sayılan "Xəmsə"ni türk dilində yazması onun Türk dünyasına olan sevgisinin, ehtiramının və bağlılığının təzahürüdür", – deyə G.Əfəndiyeva vurğulayıb.

Fondun prezidenti kitabı çağataycadan Azərbaycan dilinə uyğunlaşdıran filologiya elmləri doktoru Ramiz Əskərin nəşrin ərsəyə gəlməsində əməyini yüksək dəyərləndirib.

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov tədbirin təşkilinə görə təşəkkürünü bildirərək deyib ki, Nəvai həyatını türk dilinin inkişafına həsr edib. Türk dilində özünəməxsus yazı üslubu ilə seçilən Əlişir Nəvai həmçinin öz dövrünün böyük ehtiram sahiblərindən olub. Böyük şair əsərlərində ümumbəşəri ideyaları tərənnüm etməklə, milyonlarla oxucunun qəlbində yer qazanıb.

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov tədbirin önəmindən bəhs edərək Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun xalqlarımızın ədəbiyyatının, mədəniyyətinin yaxınlaşması, irslərimizə ortaq şəkildə sahib çıxmağımız üçün mühüm işlər gördüyünü deyib. Bildirib ki, Əlişir Nəvainin yaradıcılığı türk ədəbiyyatının bənzərsiz nümunələrindəndir.

Tədbirdə daha sonra özbəkistanlı deputatlar Oydin Abdullayev, Xurşid Dosmuhamedov, Azərbaycan Milli Məclisinin deputatı Hikmət Babaoğlu, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid çıxış ediblər. Vurğulanıb ki, Türk dünyasının gələcəyini təyin edəcək faktorlar ortaq ədəbiyyatımız, tariximiz, mədəniyyətimizdir.

Filologiya elmləri doktoru, professor Ramiz Əskər tərtib etdiyi kitab haqqında məlumat verib. Bildirib ki, Əlişir Nəvai çağatay ədəbiyyatının şahıdır və Türk dünyasının ən böyük şairlərindəndir.

Tədbirin bədii hissəsində ədəbi-musiqili kompozisiya təqdim edilib. Nəvainin şeirləri oxunub, Özbəkistanın milli musiqisi səslendirilib.

# Tbilisidəki Azərbaycan Mədəniyyəti Muzeyində Beynəlxalq Muzeylər Günü qeyd olunub



18 may – Beynəlxalq Muzeylər Günü Tbilisidəki Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyət Muzeyində qeyd olunub. Tədbirin diqqətçəkən məqamlarından biri muzeydə yaradılan "Şuşa guşəsi" olub. Guşədə Ali Baş Komandan İlham Əliyevin Şuşaya səfərlərini əks etdirən fotolar, xarıbülbülün rəmzi, Şuşadan gətirilmiş torpaq, eləcə də Şuşanın kiçik maketi nümayiş etdirilir.

Muzeydə gənc rəssam Şenay Sadiqin əsərlərindən ibarət sərgi də açılıb. "World mythologies" ("Dünya mifologiyaları") adlı sərgidə Azərbaycan, Türkiyə, Skandinaviya ölkələri, eləcə də Hindistan mədəniyyətinə dair rəsm əsərləri nümayiş etdirilib. SOCAR-ın Gürcüstan nümayəndəliyinin dəstəyi ilə təşkil edilən sərginin açılışında Azərbaycan, Türkiyə, Qazaxıstan, Macarıstan və Avstriyanın Gürcüstandakı səfirliklərinin nümayəndələri də iştirak ediblər.

Gürcüstanın Mədəniyyət, İdman və Gənclər Nazirliyinin əməkdaşı Tamta Çalabaşvili də əlamətdar gündə muzeyi ziyarət edib. O, jurnalistlərə müsahibəsində deyib ki, Beynəlxalq Muzeylər Günündə M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin təşkil etdiyi rəsm sərgisi, eləcə də muzeyin ekspozisiyası təqdirəlayiqdir.

Muzeyin elmi işçisi Leyla Əliyeva deyib ki, "Şuşa guşəsi"nin yaradılması da "Şuşa İli" layihəsi çərçivəsində həyata keçirilən tədbirlərdən biridir. Bu cür tədbirlər bundan sonra da davam etdiriləcək.

Beynəlxalq Muzeylər Günü tədbirlərinə Tbilisidəki Nəriman Nərimanovun Ev-Muzeyi də qatılıb.

# Macarıstanda "VOLT" musiqi festivalı yenidən təşkil ediləcək



Koronavirus pandemiyası ilə bağlı ikiillik fasilədən sonra bu il Macarıstanda yenidən "VOLT" festivalı keçiriləcək.

Mərkəzi Avropada ən populyar musiqi festivallarından biri olan "VOLT" iyulun 5-dən 9-dək davam edəcək. Festivalın məkanı kimi yenə Şopron şəhəri seçilib.

Avstriya-Macarıstan sərhədindəki bu şəhər ona görə münasib sayılır ki, Vyanadan 60 kilometr, Budapeştdən 200 kilometr və Bratislavadan 90 kilometr məsafədə yerləşir.

Dörd gün ərzində 12 musiqi məkanında təqribən 190 proqram təqdim ediləcək. Festivala musiqinin müxtəlif janrlarını təmsil edən sənətkarlar toplaşacaqlar. Burada rok, pop, caz, hip-hop, həmçinin texnomusiqi və dünya xalqlarının musiqisi səslənəcək.

# Çanaqqala Troya Muzeyi Avropa muzeylərinin gecəsində



Beynəlxalq Muzeylər Günü çərçivəsində keçirilən Avropa muzeylərinin "açıq qapı" və "muzeylər gecəsi" aksiyasında Türkiyənin Çanaqqala Troya Muzeyi də təmsil olunub.

Troya Muzeyinin direktoru Rıdvan Gölcük bildirib ki, Avropa Şurası, UNESCO və Beynəlxalq Muzeylər Şurası (İCOM) tərəfindən təşkil edilən tədbirdə Türkiyə 17 ildir iştirak edir. Bu il Troya Muzeyi də bu muzeylər arasındadır.

Beynəlxalq Muzeylər Günü münasibətilə muzeyin bağçasındakı zeytun bağında Troya əfsanəsi və Homerin "İliada" dastanından animasiya səhnələri Troya Muzeyinin 3D görüntüsü ilə ilk dəfə seyrçilərə təqdim olunub.

Muzeyin direktoru qeyd edib ki, bu formatda xüsusi gecələr ilboyu daha beş dəfə təşkil ediləcək.

# MDB ölkələrinin kino layihələrinin pitçinqi

Avqustun 22-23-də Rusiyanın Sankt-Peterburq şəhərində ilk dəfə olaraq MDB ölkələrinin kino layihələrinin pitçinqi keçiriləcək.

Pitçinq "Lendok" Kinostudiyasının 90 illik yubileyinə həsr olunmuş MDB ölkələrinin birgə kino istehsalına dair konfrans çərçivəsində təşkil olunacaq. Konfransda MDB ölkələrinin kinostudiyaların və kino xadimlərinin iştirakı nəzərdə tutulur.

Pitçinqdə iştirak ödənişsizdir. Müsabiqədə MDB ölkələrindən olan kinematoqrafçılar (fiziki və hüquqi şəxslər) iştirak edə bilərlər. Layihələr tammetrajlı bədii film (xronometraj 70-90 dəqiqə), onlayn platformalar üçün bədii serial, tammetrajlı sənədli film (xronometraj 50-90 dəqiqə) və animasiya filmi (animasiya serialı və ya tammetrajlı animasiya filmi) kateqoriyalar üzrə qiymətləndiriləcək.

Layihənin "Birgə istehsal" kimi qəbul edilməsi üçün büdcənin ən azı 20 faizinin müştərək, habelə filmin müəlliflərinin bir hissəsinin digər MDB ölkələrindən olması vacibdir.

Müraciətlər 2022-ci il mayın 16-dan iyulun 20-dək script.moviestart.ru platforması vasitəsilə aparılır.

# Kann festivalı iki il aradan sonra ənənəvi təmtəraqla keçirilir



COVİD-19 pandemiyası səbəbindən 2020-ci ildə keçirilməyən, 2021-ci ildə də məhdud formatda təşkil olunan Kann Beynəlxalq Film Festivalı, nəhayət, ənənəvi təmtəraqla kino ulduzlarını bir araya toplayıb.

Mayın 17-də açılışı keçirilən 75-ci Kann Beynəlxalq Film Festivalının əsas müsabiqə proqramına 21 film daxildir.

Fransalı aktyor və rejissor Vinsent Lindonun sədrlik etdiyi münsiflər heyətində rejissorlar – Əsgər Fərhadi (İran), Ceff Nikols (ABŞ), Yoakim Trier (Norveç) və Ladj Ly (Fransa), aktrisalar – britaniyalı Rebecca Hall, hindistanlı Deepika Padukone, isveçli Noomi Rapace, italyan Jasmine Trinca yer alıblar.

Maraqlıdır ki, festivalın münsiflər heyətinin yarısı qadınlar olmaqla bərabər, müsabiqə proqramındakı filmlərin də yarıdan çoxu – 11-i xanım rejissorlar tərəfindən çəkilib.

75-ci Kann Film Festivalının açılış mərasiminin fəxri qonağı amerikalı aktyor, rejissor və prodüser Forest Vitaker olub. Ona festivalın fəxri "Palma budağı" mükafatı təqdim olunub. Amerikalı rejissorun Kristof Kastan və Tomas Sametin ilə birlikdə çəkdiyi "Sülh naminə" son filmi mayın 18-də xüsusi proqramda nümayiş olunub.

Festivalın əsas proqramının açılışı filmi isə fransalı rejissor Mişel Xazanaviçusun "Son montaj" zombi-komediyası olub.

Festival mayın 28-dək davam edəcək.

Xronoqraf

# Tarixdə bu gün

Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 217 il əvvəl...

**21 may 1805-ci ildə** Rusiya-İran müharibəsi (1804-1813) gedişində Şəki xanlığının Rusiyaya birləşdirilməsinə dair ikinci Kürəkçay müqaviləsi bağlanıb. Mayın 14-də bağlanan birinci müqavilə ilə Qarabağ xanlığı Rusiyaya ilhaq edilmişdi. Şəki hakimi Səlim xan və Rusiyanın Qafqaz qoşunlarının komandanı general Sisianov tərəfindən imzalanan müqaviləyə əsasən, ruslar xanlığa nisbi özünüidarə vəd etmişdi. Lakin bu, işğalı pərdələmək üçün idi. Gəncə (1804), Qarabağ və Şəki xanlıqlarını (1805) ələ keçirməklə Rusiya Azərbaycan torpaqlarının istilasını genişləndirdi.

### 178 il əvvəl...

**24 may 1844-cü ildə** ixtiraçı Semuel Morze ilk elektromaqnit rabitə xəttinin (teleqraf) istifadəyə verilməsi üçün ABŞ hökumətindən maliyyə dəstəyi alıb. 60 kilometr uzunluğunda elektromaqnit rabitə xətti Vaşinqton və Baltimor şəhərləri arasında quraşdırılıb. Tezliklə Morzenin ixtirası dünyaya yayıldı və təxminən bir əsr ərzində teleqraf dünyada yeganə rabitə vasitəsi oldu.

### 112 il əvvəl...




**24 may 1910-cu ildə** dahi bəstəkar Üzeyir Hacıbəylinin ilk musiqili komediyası – "Ər və arvad" əsəri səhnələşdirilib. Azərbaycanda ilk milli operettanın tamaşası Bakıda Nikitin qardaşları sirkinin səhnəsində göstərilib. Əsas rollarda H.Sarabski (Mərcan bəy), Ə.Ağdamski (Minnət xanım) çıxış edib.

### 102 il əvvəl...

**24 may 1920-ci ildə** Azərbaycan Müvəqqəti İnqilab Komitəsi neft sənayesinin milliləşdirilməsi haqqında dekret verib. Gerçəkdə isə neft bolşevik Rusiyasının nəzarətinə verilmişdi. Bu məqsədlə Azərbaycan Neft Komitəsi yaradılmış və komitəyə rəhbərlik V.Lenin tərəfindən Bakıya göndərilən A.Serebrovskiyə tapşırılmışdı.

### 99 il əvvəl...



**23 may 1923-cü ildə** Azərbaycan Mərkəzi Dövlət Kitabxanasının (indiki Milli Kitabxana) təntənəli açılışı keçirilib. Kitabxana Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin binasında yerləşirdi. 1939-cu ildə kitabxanaya mütəfəkkir, yazıçı-dramaturq M.F.Axundzadənin adı verildi. 1961-ci ildə isə kitabxana indiki binasına köçdü.

### 73 il əvvəl...

**23 may 1949-cu ildə** Almaniya Federativ Respublikasının Konstitusiyası qəbul edilib və Almaniyanın ikiyə bölünməsi rəsmiləşib. ABŞ, Britaniya və Fransanın nəzarətində olan sektorlarda AFR-in (Qərbi Almaniya) yaradılmasından sonra SSRİ-nin nəzarətində olan Şərqi Almaniyada sosialist yönlü dövlət – Almaniya Demokratik Respublikası (7 oktyabr 1949-cu il) yarandı. 1990-cı ilin 3 oktyabrında iki Almaniya birləşdi.

### 32 il əvvəl...

**22 may 1990-cı ildə** Yəmən Ərəb Respublikası (Şimali Yəmən) və Yəmən Xalq Demokratik Respublikası (Cənubi Yəmən) birləşib, vahid Yəmən Respublikası yaranıb. Ərəbistan yarımadasında yerləşən Yəmən XVIII əsrdən Osmanlının nəzarətində idi, 1839-cu ildə cənub Britaniya protektoratlığına keçmişdi. 1918-ci ildə Şimali Yəmən, 1967-ci ildə isə Cənubi Yəmən müstəqillik qazanmışdı.

### 28 il əvvəl...

**22 may 1994-cü ildə** beynəlxalq birlik Yuqoslaviyanın parçalanması faktını tanıyıb. Bosniya və Herseqovina, Xorvatiya və Sloveniya BMT-yə qəbul edilib. Lakin bu qərar Balkanlarda qanlı müharibənin qarşısını ala bilmədi.

### 20 il əvvəl...

**22 may 2002-ci ildə** Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavel Azərbaycan Prezidenti Heydər Əliyevin dəvəti ilə Bakıya rəsmi səfərə gəlib. Bu, dünya katolikləri liderinin tarixdə Azərbaycana ilk gəlişi, müsəlman ölkələrinə etdiyi azsaylı səfərlərdən biri idi.

**Hazırladı: V.Orxan**

Cəlil Məmmədquluzadənin Ev-Muzeyi, Cəfər Cabbarlının Ev-Muzeyi, Məmməd Səid Ordubadinin Xatirə Muzeyi və Əzim Əzimzadənin Ev- Muzeyinin kollektivləri Əməkdar mədəniyyət işçisi, uzun illər muzey sahəsində fəaliyyət göstərmiş

**Pərixanım Mahmudovanın**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1436
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641